**Azərbaycan Dövlət Pedaqoji Universitetinın tarixinə qısa baxış**

## AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİNİN 100 İLLİK YUBİLEYİNİN QEYD EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2021-ci ildə respublikamızın ilk ali pedaqoji təhsil ocağının – Azərbaycan Dövlət Pedaqoji Universitetinin fəaliyyətə başlamasının 100 illiyi tamam olur.

Azərbaycan Dövlət Pedaqoji Universiteti ölkəmizin təhsil tarixində xüsusi yer tutan, zəngin ənənələrə malik ali təhsil müəssisələrindəndir. Yarandığı vaxtdan etibarən Universitet üzərinə düşən vəzifələri həmişə layiqincə yerinə yetirmiş, respublikamızla yanaşı, bir sıra digər ölkələr üçün elmi-pedaqoji kadr hazırlanması işini müvəffəqiyyətlə həyata keçirmişdir. Azərbaycanın tanınmış ictimai, elm və mədəniyyət xadimləri arasında Universitetin çox sayda məzunları vardır.

İxtisaslaşmış ali təhsil müəssisəsi kimi Azərbaycan Dövlət Pedaqoji Universiteti müəllim hazırlığı sahəsində və pedaqoji təhsilin inkişafı naminə bu gün də uğurlu fəaliyyəti ilə müstəqil Azərbaycanın inkişafına töhfələrini əsirgəmir. Universitetdə qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından faydalanmaqla ali təhsilin məzmun və keyfiyyət göstəricilərinin təkmilləşdirilməsi istiqamətində zəruri addımlar atılır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə yüksək ixtisaslı pedaqoji və elmi-pedaqoji kadr yetişdirilməsi sahəsində mühüm xidmətlərini nəzərə alaraq, Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 17 aprel 2021-ci il**

Azərbaycan maarifçilərinin milli təəssübkeşliyi, əzmkarlığı və fədakarlığı sayəsində 100 il əvvəl yaradılan Azərbaycan Dövlət Pedaqoji Univ ers iteti çətin, mürəkkəb və şərəfli bir yol keçmiş, milli dü şüncənin inkişafına, elmi təf əkkürün və ziyalı təbəqəsinin formalaşmasına, pedaqoji və elmi-pedaq oji kadr hazırlığına misilsiz töhfələr verməklə zəngin ənənələrə malik şöhrətli təhsil və elm məbədinə çev rilmişdir. Azərbaycan Xalq Komissarları Sovetinin sədr i Nəriman Nərimanovun 1921-ci il 26 avqust tarixli 66 saylı **“Ali Pedaqoji Kişi İnstitutunun təşkili haqqında”** dekreti əsasında təşkil edilən təhsil ocağının fəaliyyətinə ümummilli lider Heydər Əliyev və onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həmişə yüksək qiymət verilmişdir. Ulu öndər Heydər Əliyevin ayrı-ayrı vaxtlarda 5 dəfə (1971, 1973, 1977, 1981, 1982) universitetə gəlişi professor-müəllim heyətinin daha səmərəli və məhsuldar fəaliyyəti üçün stimul yaratmışdır. Heydər Əliyev ilk dəfə 1971-ci ildə Pedaqoji İnstitutun partiya təşkilatının hesabat-seçki konfransında, 1973-cü ildə institutun 50 illik, 1981-ci ildə 60 illik yubileylərində iştirak etmiş, yük sək dövlət mü ka fatlarını kollektivə təqdim edərək müəllim kadrları hazırlığının perspektivləri ilə bağlı geniş nitq söyləmişdir. 2 dəfə (1977 və 1982) Pedaqoji İnstitutda qəbul imtahanı prosesini izləmiş, institutun professor-müəllim heyəti və abituriyentlərin valideynləri ilə görüşmüşdür. Pedaqoji İnstitutun inkişafına daim diqqət və qayğı göstərən Heydər Əliyev 14 avqust 1978-ci ildə Bolqarıstan Xalq Respublikasında əmək semestrində (tələbə inşaat dəstəsində) iştirak edən institutun bir qrup tələbəsi ilə Sofiya şəhərində görüşmüş, gənclərə əmək və təhsildə müvəffəqiyyətlər arzulamışdır. Ulu öndər Heydər Əliyevin Pedaqoji İnstitutun 50 illik yubileyində dediyi *“Azərbaycan Dövlət Pedaqoji İnstitutu böyük və çətin yol keçmişdir. Onun kollektivi Azərbaycan ümumtəhsil məktəbinin inkişafında böyük xidmət göstərmiş, institut xalq maarifi üçün yüksəkixtisaslı kadrlar ocağına çevrilmişdir”* sözləri institutun inkişaf strategiyasının hazırlanmasında və həyata keçirilməsində mühüm rol oynamışdır. Pedaqoji Universitet fəaliyyət göstərdiyi illər ərzində 160 mindən artıq yüksəkixtisaslı müəllim kadrları hazırlığında üzərinə düşən missiyanı layiqincə yerinə yetirmiş, bu sahədə liderliyini qoruyub saxlamışdır. Azərbaycanda pedaqogika, psixologiya və ayrı-ayrı fənlərin tədrisi metodikası bir elm sahəsi kimi məhz bu qocaman təhsil ocağında təşəkkül taparaq inkişaf etmişdir. Azərbaycan ETPEİ (indiki Təhsil İnstitutu), keçən əsrin 30-40-cı illərində fəaliyyət göstərən ikiillik müəllimlər institutları, indiki Gəncə Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti və Bakı Slavyan Universiteti ya Pedaqoji İnstitutun ayrı-ayrı fakültələrinin bazasında yaradılmış, ya da institutun pedaqoji kadrlarının köməyi ilə fəaliyyətə başlamışdır. Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan filialı (1967-1972) əsasında Y.Məmmədəliyev adına Naxçıvan Pedaqoji İnstitutu, onun əsasında isə Nax çıvan Dövlət Universiteti formalaşmışdır. 1967-ci ildə 3 ixtisas üzrə 102 nəfər tələbə və 3 nəfər ştatda olan müəllimlə fəaliyyətə başlayan indiki Naxçıvan

Dövlət Universitetində hazırda 6 minə yaxın tələbə təhsil alır. 1969-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi fəaliyyətə başlayan Xankəndi Pedaqoji İnstitutu 1973-cü ildə müstəqil ali məktəbə çevrilmiş,16 may 1988-ci ilə kimi fəaliyyət göstərmişdir.1988-ci ildə erməni millətçiləri tərəfindən Xankəndidən qovulan institutun Azərbaycan bölməsinin müəllim və tələbələri bir müddət Gəncə Pedaqoji İnstitutunda yerləşmiş, sonra isə Şuşaya qay ıtmışlar. Pedaqoji İnstitutun Şuşa fakültəsi, onun əsasında isə Şuşa filialı yaradılmışdır. Həmin filial hazırda Ağcabədi filialı olaraq ADPU-nun nəzdində fəaliyyət göstərir. Bu gün elə bir təhsil müəssisəsi (məktəbəqədər, ümumtəhsil, texniki-peşə, orta ixtisas, ali), elmi idarə, təşkilat və ya təhsillə bağlı QHT yoxdur ki, orada Pedaqoji Universitetin məzunları çalışmasın. Məzunlarımız həm də dövlət orqanlarında və özəl qurumlarda, güc strukturlarında, nazirlik, komitə, səhmdar cəmiyyəti və agentliklərdə uğurla fəaliyyət göstərirlər. Ümumiyyətlə, Pedaqoji Universitet ölkədə pedaqoji və elmi-pedaqoji kadrların hazırlığını, təkmilləşdirilməsini və ixtisasının artırılmasını həyata keçirən pedaqoji təhsil müəssisələrinin (ali və ya orta ixtisas) yaradılmasında ilkin baza rolunu oynamış, onların sonrakı inkişafına təkan vermişdir. Elə bu səbəbdəndir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Dövlət Pe daq oji Universitetinin 100 illik yubileyinin qeyd edilm əs i ilə bağlı 17 aprel 2021-ci il tarixli Sərənca mın da deyilir: *"Yarandığı vaxtdan etibarən Universitet üzərinə düşən vəzifələri həmişə layiqincə yerinə yetirmiş, respublikamızla yanaşı, bir sıra digər ölkələr üçün elmi-pedaqoji kadr hazırlanması işini müvəffəqiyyətlə həyata keçirmişdir."* Son illərdə Pedaqoji Universitet Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət və qayğısı sayəsində dinamik inkişaf edir. Cənab Prezidentin 26 dekabr 2006-cı il tarixli Sərəncamı ilə ADPU-nun 85 illik, 18 aprel 2012-ci il tarixli Sərəncamı ilə 90 illik yubileyləri dövlət səviyyəsində keçirilmiş, elmin və təhsilin inkişafındakı xidmətlərinə görə universitetin əməkdaşlarından 2-si "Şöhrət" ordeni, 26-sı "Tərəqqi" medalı, 5-i "Əməkdar elm xadimi", 39-u "Əməkdar müəllim", 2-si "Əməkdar rəssam", 1-i "Əməkdar jurnalist", 1-i "Əməkdar mühəndis", 1-i "Əməkdar mədəniyyət işçisi" fəxri adları ilə təltif olunmuş, 1 nəfərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilmişdir. Yubileylərdən sonra da dövlət başçısının müvafiq sərəncamları ilə universitetimizin əməkdaşlarından 2-si "Şöhrət" ordeni, 1-i 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, 3-ü "Tərəqqi" medalı, 1-i "Əməkdar elm xadimi", 1-i "Əməkdar bədən tərbiyəsi və idman xadimi", 2-si "Əməkdar mədəniyyət işçisi", 3-ü "Əməkdar müəllim" fəxri adlarına layiq görülüb, 2 nəfərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilib. Azərbaycan Respublikasının Prezidenti cənab İ.Əliyevin Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncamı 20 mindən çox üzvü olan ADPU ailəsinə sonsuz sevinc bəxş etm əklə yanaşı, həm də onları daha səmərəli işləməyə ruhlandırmışdır. Kollektivimiz yuxarıda adı çəkilən sərəncamları Pedaqoji Universitetin fəaliyyətinə

dövlətimizin xüsusi diqqət və qayğısının təzahürü kimi dəyərləndirərək, ölkə başçısına dərin hörmət və minnət darlığını bildirir.

6 tələbə və 8 müəllimlə fəaliyyətə başlayan Ali Kişi Pedaqoji İnstitutu 1924/25-ci tədris ilində inzibati cəhətdən Ali Qadın Pedaqoji İnstitutu ilə birləşdirildi, 1926/27-ci tədris ilinin sonunda isə Azərbaycan Dövlət Universitetinin Pedaqoji fakültəsinin tərkibinə verildi. Az sonra məlum oldu ki, ADU-nun Pedaqoji fakültəsi milli məktəblərin müəll im kadrlara olan tələbatını ödəmək iqtidarında deyil. Fədakar ziyalıların inadlı səyləri nəticəsində Ali Pedaqoji İnstitut 28 sentyabr 1929-cu ildə yenidən müstəqil ali təhsil ocağı kimi təşkil edildi. 1930-cu ildə ali təhsil tarixində gözlənilməz hadisə baş verdi, milli dövlətçilik təfəkkürünə ağır zərbə vuruldu. Belə ki, Azərbaycan Dövlət Universitetinin 10 illik yubileyindən 5 ay sonra universitet ləğv edildi və onun fakültələri əsasında müstəqil sahə institutları yaradıldı. Bu dəfə ADU-nun Pedaqoji fakültəsi yenidən təşkil edilən Pedaqoji İnstituta birləşdirildi. Struktur dəyişikliyi ilə əlaqədar Ali Pedaqoji İnstitut yenidən təşkil olundu və ona V.İ.Leninin adı verildi. Sovet-alman müharibəsi başlananda digər ali təhsil müəssisələri kimi, Azərbaycan Dövlət Pedaqoji İnstitutu da ciddi sınaq qarşısında qaldı, onun maliyyə imkanları tükəndi, müəllim və tələbələrin vəziyyəti ağırlaşdı. Azərbaycan Xalq Komissarları Soveti və Azərbaycan KP MK 19 sentyabr 1941-ci ildə “V.İ.Lenin adına ADPİ-nin S.M.Kirov adına ADU ilə birləşdirilməsi haqqında” qərar qəbul etmək məcburiyyətində qaldı. Müharibənin gedişində əsaslı dönüş yarandıqdan sonra ADPİ yenidən müstəqil institut kimi bərpa edildi (1943) və cəbhədə həlak olmuş müəllimləri əvəz edə biləcək kadrların hazırlanması sahəsində məqsədyönlü fəaliyyətə başladı. İnstitutun maddi-texniki bazası möhkəmləndirildi, qəbul planı artırıl dı, qiyabi şöbənin fəaliyyəti yenidən quruldu, ali pedaqoji təhsilin məzmunu yeniləşdirildi, professor-müəllim heyətinin tərkibi elmi dərəcəlilərin hesabına xeyli artdı, dissertasiya üzərində işləyənlərlə bağlı stimullaşdırıcı tədbirlər həyata keçirildi, elmlər doktoru dissertasiyası yazanların iş yeri və əmək haqqı saxlanılmaqla elmi işçi vəzifəsinə keçirilmələrinə icazə verildi. Bu kimi sistemli və kompleks tədbirlər nəticəsində ADPİ pedaqoji və elmi-pedaqoji kadr hazırlığında böyük uğurlara imza ata bildi.

26 may 1972-ci ildə ADPİ müəllim kadr larının hazırlanması və pedaqogika elminin inkişafı sahəsində qazandığı müvəffəqiyyətlərə görə SSRİ Ali Sovetinin Rəyasət Heyəti tərəfindən “Qırmızı Əmək Bayrağı” ordeni ilə təltif olundu. İndiki Dövlət Təhlükəsizliyi Xidmətinin Mədəniyyət Mərkəzində yüksək dövlət mükafatını institutun kollektivinə Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev təqdim etdi. 1981-ci il dekabr ayının 23-də yenə həmin mərkəzdə institutun 60 illik yubileyi keçirildi. Azərbaycanda təhsilin, elmin, mədəniyyətin inkişafına yüksək dəyər verən Heydər Əliyev ikinci dəfə yubiley tədbirində iştirak etdi. Ulu öndər çıxışında respublikanın həyatında baş verən müsbət dəyişikliklərdə institutun rolunu böyük

razılıq hissi ilə qeyd etdi və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin qərarı ilə ADPİ-nin Fəxri Fərmanla təltif edildiyini bildirdi. Tədbirdə ulu öndər Heydər Əliyev institutun əməkdaşlarının müəllim kadrları hazırlığındakı fəaliyyətini yüksək qiymətləndirdi: *"Müəllimlik işi həm şərəfli, həm də çətin işdir. Ali məktəb müəllimi olmaq, müəllimlər hazırlamaq, yəni müəllimlər müəllimi olmaq ikiqat şərəfli və eyni zamanda ikiqat məsuliyyətli işdir. Biz yaxşı bilirik ki, 65 min nəfərdən artıq müəllim hazırlamaq üçün professor və müəllimlərin bütün nəsilləri nə qədər zəhmət çəkmişlər."*

Ümummilli liderin də dediyi kimi, universitetin guşə daşını qoyanların, burada pedaqoji fəaliyyətlə məşğul olan professor-müəllim heyətinin uzun illər ərzində sərf etdiyi gərgin əmək müəyyən müddətdən sonra öz bəhrəsini verməyə başlamışdır. Belə ki, institutun məzunları respublikada savadsızlığın ləğvində, icbari ibtidai təhsilin (1930-1934), yeddiillik (1935-1958), səkkiz illik (1959-1966) və icbari ümumi orta təhsilin (1967-1975) həyata keçirilməsində müstəsna rol oynamışlar. İnstitutun ilk müəllimlərindən olan görkəmli pedaqoq Abdulla bəy Əfəndizadənin "*Biz istəyirik ki, məktəbimiz ümumtürk ellərinin hüsn-rəğbətini qazansın, bütün Şərq elmi üçün inqilab məşəli olsun.. Oksford və Kembric darülfünunları kimi Şekspirlər, Nyutonlar, Miller və Darvinlər yetişdirməyə müvəffəq olsun"* arzuları az sonra reallaşdı. Böyük zəka sahiblərindən dərs alan Pedaqoji İnstitutun yetirmələrinin əksəriyyəti istedadlı alim, mədəniyyət xadimi və yazıçı kimi məşhurlaşdı, partiya və dövlət xadimi kimi tanındı, qabaqcıl müəllim kimi ad-san qazandı. *Universitetin məzunları – Azərbaycan EA-nın həqiqi üzvləri Yusif Məmmədəliyev, Heydər Hüseynov, İbrahim İbrahimov, Zahid Xəlilov, Həsən Abdullayev, Məcid Rəsulov, Əşrəf Hüseynov, İsmayıl Hüseynov, Abdulla Qarayev, Əlisöhbət Sumbatzadə, Məmməd Arif Dadaşzadə, Məmmədcəfər Cəfərov, Məmmədağa Şirəliyev, Həmid Araslı, Feyzulla Qasımzadə, Budaq Budaqov, Cavad Abdinov, Bahadur Tağıyev, Qərib Məmmədov, İsa Həbibbəyli, Vaqif Abbasov, İsmayıl Hacıyev, müxbir üzvləri Əbdüləzəl Dəmirçizadə, Mövsüm Mövsümzadə, Şamxal Məmmədov, Maqsud Cavadov, Cümşüd Zülfüqarlı, Zərifə Budaqova ,Afad Qurbanov, Hacı Qadir Qədirzadə, Hacıfəxrəddin Səfərli, Oruc Həsənli, SSRİ PEA-nın həqiqi üzvü Mehdi Mehdizadə, müxbir üzvləri Abasqulu Abaszadə, Hüseyn Əhmədov, Sədi İmanov, görkəmli şair və yazıçılar Səməd Vurğun, Süleyman Rəhimov, Mehdi Hüseyn, Mikayıl Müşfiq, Əbülhəsən Ələkbərzadə, Eyyub Abbasov, İlyas Əfəndiyev, Şıxəli Qurbanov, İsmayıl Şıxlı, Zeynal Xəlil, Gəray Fəzli, Məmməd Rahim, Məmm əd Araz, Qılman İlkin, Əhməd Cəmil, Mədinə Gülgün, Mikayıl Rzaquluzadə, Osman Sarıvəlli, Qabil, Mirvarid Dilbazi, Tofiq Bayram, İlyas Tapdıq, Ənvər Əlibəyli, Zeynal Xəlil, Zeynal Cabbarzadə, Böyükağa Qasımzadə, Sərdar Əsəd, görkəmli bəstəkarlar Səid Rüstəmov, Oqtay Rəcəbov xalqımızın şöhrət simvollarına çevril iblər.*

İnstitutun professor-müəllim heyəti və məzunları ölkədə elmi-pedaqoji elitanın formalaşmasında müstəsna xidmətlər göstərmişlər. *Fəxrlə qeyd olunmalıdır ki, Azərbaycan Elmlər Akademiyasını təsis edən 15 nəfərdən 3-ü (Yusif Məmmədəliyev, Heydər Hüseynov, Səməd Vurğun) Pedaqoji Universitetin məzunu, 5 isə müəllimi (Yusif Məmmədəliyev, Heydər Hüseynov, Aleksandr Qrossheym, Üzeyir Hacıbəyli, Mir Əsədulla Mirqasımov) olmuşdur. Akademiyanın prezidentlərindən 3 nəfəri (Yusif Məmmədəliyev, Zahid Xəlilov, Həsən Abdullayev) Pedaqoji Universitetin yetirmələridir.Yusif Məmmədəliyev iki dəfə (19471951 və 1958-1961) Elmlər Akademiyasının prezidenti seçilib. Pedaqoji Universitet Azərbaycanda elm və təhsilin inkişafına dəyərli töhfələr verən tanınmış alimlər yetişdirməklə yanaşı, həm də elmi mərkəz kimi formalaşıb inkişaf etmişdir. Bu ali təhsil müəssisəsində pedaqogika və psixologiya (Əhməd Seyidov, Mehdi Mehdizadə, Əhməd Zəkuzadə, Mərdan Muradxanov, Şövqi Ağayev, Hüseyn Əhmədov, Əbdül Əlizadə), riyaziyyat (Məmməd Əfəndiyev, Maqsud Cavadov, İbrahim İbrahimov, Mais Cavadov), fizika (Abasqulu Abaszadə, Sədi İmanov), kimya (Həbibulla Şahtaxtinski, Şamxal Məmmədov, Allahverdi Verdizadə), biologiya (Zəhra Şahtaxtinskaya, Abdulla Qarayev), tarix (Zülfəli İbrahimov, Yusif Yusifov), filologiya (Bəkir Çobanzadə, Məmmədağa Şirəliyev, Əbdüləzəl Dəmirçizadə, Mikayıl Rəfili, Əli Sultanlı, Həmid Araslı, Feyzulla Qasımzadə, Afad Qurbanov, Həsən Mirzəyev və b.), fəlsəfə (Heydər Hüseynov) və digər sahələr üzrə elmi məktəblər və istiqamətlər inkişaf etdirilmişdir. SSRİ Xalq müəllimləri Zahid Şöyübov, Cəbrayıl Zəkiyev və İsrafil Şükürovun, Sosialist Əməyi Qəhrəmanları Səfa İmanov, Zərbəli Səmədov və Rüstəm Səfərəliyevin, Sovet İttifaqı Qəhrəmanları Mehdi Hüseynzadə, Xıdır Mustafayev, Fariz Səfərov və Səlahəddin Kazımovun, Azərbaycanın Milli Qəhrəmanları kapitan Mirələkbər İbrahimov, leytenant Mətləb Quliyev və Şakir Salahovun, "Zəfər" ordenli general-polkovnik Əli Nağıyevin, "Azərbaycan Bayrağı" ordenli baş leytenant Malik Bayramov, leytenant Orxan Nəbiyev və Firdovsi Tahirovun Pedaqoji Universitetin məzunları olmaları bizi qürurlandırmaya bilməz.*

Pedaqoji Universitetin tarixi həm də onu yaradanların, yaşadanların, burada təhsil alan tələbələrin, aspirantların (doktorantların), şüurlu həyatını elm və təhsilə həsr etmiş professor-müəllimlərin tərcümeyi-hallarıdır. Pedaqoji Universitetin tarixinə düşmüş, onun təşkilində, inkişafında və idarə edilməsində xidmətləri olan 31 rektor (direktor), Ali Pedaqoji Qadın İnstitutunun ilk və son direktoru Sara Xuramoviç, Abdulla Şaiq adına Nümunə məktəbinin direktoru Qafur Əfəndizadə (Qantəmir) milli təhsil quruculuğumuzun fədailəridirlər.

ADPU-ya rəhbərlik edən direktor və rektorlar fərqli dövrlərdə, fərqli ideologiya və fərqli idarəetmə sistemlərində fəaliyyət göstərmişlər. İnstitutun təşkili və formalaşmasının ilkin mərhələsi Odessa Universitetinin məzunu, ilk direktor Fətulla bəy Rzabəylinin, Peterburq Universitetinin məzunu Məmməd Əfəndiyevin, Tiflis

Müəllimlər İnstitutunun məzunu Həbib bəy Mahmudbəyovun, Peterburq Psixonevroloji İnstitutunun məzunu, Başqırd Hökumətinin sədri olmuş Şarif Manatovun və Kiyev Politexnik Universitetinin məzunu Cəlil Məmmədzadənin adı və yorulmaz fəaliyyəti ilə bağlıdır. Həmin dövrdə ali təhsilli müəllim kadrları hazırlığında mövcud olan ciddi çətinliklər (ali pedaqoji məktəb quruculuğu ilə bağlı təcrübənin olmaması, orta təhsilli gənclərin sayının az olması, bütün ixtisaslar üzrə ana dilində dərs deyə biləcək müəllimlərin çatışmaması, milli dildə dərslik və dərs vəsaitlərinin hazırlanmaması, tədris laboratoriyalarının zəruri ava danlıqlarla təchiz edilməməsi, institutun daimi tədris binasının olmaması və s.) məhz onların fədakarlığı nəticəsində aradan qaldırılmışdır. Keçən əsrin 30-cu illəri institutun həyatında çox çətin və mürəkkəb mərhələ kimi yadda qalıb. O dövrdə rəhbərlik tez-tez dəyişdirilsə də, ADPİ-də təşkilati məsələlərin həllində, tədris və elmi-tədqiqat işlərinin düzgün qurulmasında direktor vəzifəsində çalışan Tiflis Müəllimlər İnstitutunun məzunu Pənah Qasımovun, Azərbaycan Dövlət Universitetinin məzunu Bəşir Bünyatovun, Azərbaycan Dövlət Universitetinin məzunu Məmməd Bayramovun, Şərq Zəhmətkeşləri Kommunist Universitetinin məzunu Mirzə Məmmədovun, Tiflis Politexnik İnstitutunun məzunu Mirzə Davud Rəsulzadənin, Azərbaycan Dövlət Universitetinin məzunu Hüseyn Musayevin, Azərbaycan Pedaqoji İnstitutunun məzunu Aqil Salayevin, Zaqafqaziya Kommunist Universitetinin məzunu Camal Əliyevin və ÜİK(b)P MK-nın Marksizm-leninizm İnstitutunun Azərbaycan filialının məzunu Ələsgər Həşimovun mühüm xidmətləri oldu.

30-cu illərin II yarısında başlanan repressiya dalğası Pedaqoji İnstitutun ən yaxşı müəllimlərinin böyük bir hissəsinin cismən məhv edilməsi və ya Sibirə sürgün olunması ilə nəticələndi. İnstitutun direktorları olmuş Pənah Qasımov, Məmməd Bayramov, Mirzə Davud Rəsulzadə, Hüseyn Musayev repressiya maşınının təzyiqindən yan keçə bilmədilər. Məmməd Bayramov, Mirzə Məmmədov həbs ediləndən bir il sonra – 1938-ci ildə Bakıda güllələndilər.

Müharibədən sonrakı illərdə də ADPİ müəllim kadrları hazırlığı sahəsində liderliyini qoruyub saxladı və özünün dinamik inkişafını təmin etdi. Bu illərdə instituta ayrı-ayrı vaxtlarda maarif və mədəniyyət naziri olmuş Məmməd Ələkbərov, 23 il Azərbaycan maarifinə nazir kimi rəhbərlik etmiş akademik Mehdi Mehdizadə, professorlar – Ağaməmməd Abdullayev, Əhməd Seyidov, Cəfər Hacıyev, Həmid Qədirov, Cəbrayıl Ələsgərov, Mehdixan Vəkilov, Mehdi Əliyev, Şövqi Ağayev rəhbərlik etdilər.

1970-1980-ci illərdə instituta prof. Həşim Ağayev və AMEA-nın müxbir üzvü, prof. Afad Qur banov rəhbərlik etmişlər.

1990-cı ilin əvvəllində Azərbaycan yenidən öz müstəqilliyinə qovuşdu. Sosial-iqtisadi, ictimai-siyasi və elmi-mədəni sferada ciddi dəyişikliklər baş verdi. Buna müvafiq olaraq, ali təhsil müəssisələrinin statusunda, strukturunda və idarəedilməsində yeniliklər meydana gəldi.

1991-ci ildə Pedaqoji İnstituta "universitet" statusu verildi. Bu, ADPU-ya müstəqil fəaliyyət göstərmək, kadr siyasətini sərbəst həyata keçirmək, təhsil müəssisəsinin büdcəsinə daxil olan vəsaitdən səmərəli istifadə etmək, xarici ölkələrin ali təhsil müəssisələri və elm mərkəzləri ilə birbaşa əlaqə saxlamaq, qarşılıqlı müəllim və tələbə mübadiləsi aparmaq imkanı verdi.

Bu illərdə Pedaqoji Universitetə AMEA-nın müxbir üzvü, prof. Səlvər Aslanov, prof. Nizami Xudiyev, prof. Bəhlul Ağayev və AMEA-nın müxbir üzvü, prof. Yusif Məmmədov (Hazırda prof. Yusif Məmmədov AMEA-nın həqiqi üzvüdür) rəhbərlik etdilər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 23 iyun 2016-cı il tarixli Sərəncamı ilə bu qocaman elm və təhsil ocağına tarix elmləri doktoru, professor Cəfər Cəfərov rektor təyin olundu. Bu elə bir dövr idi ki, dövlət başçısının 26 noyabr 2015-ci il tarixli Sərəncamı ilə Azərbaycan Müəllimlər İnstitutunun ADPU-ya qoşulması prosesi gedirdi. Qarşıda çətin və məsuliyyətli vəzifə dururdu. Bütün problem və çətinliklərə rəğmən, universitet kollektivi prof. Cəfər Cəfərovun rəhbərliyi ilə üzərlərinə qoyulan vəzifəni nisbətən qısa müddətdə həll etməyə, universitetin sakit, sabit və ritmik fəaliyyətini təmin etməyə, unifikasiyanı başa çatdırmağa nail oldular.

Tələbə nailiyyətlərinin qiymətləndirilməsində VTS test sistemi ilə yanaşı, imtahanların yazılı şəkildə aparılmasına üstünlük verməklə, tələbələrə imtahan formasını müstəqil seçmək imkanı yaradıldı və ardınca tam yazılı imtahana keçildi. Bu gün də imtahan prosesinin fənlərin spesifikalarına uyğun olaraq təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilir. Məqsəd keyfiyyətli təhsil, ölçüləbilən tam şəffaf nəticələrə nail olmaqdır.

İnfrastrukturun yeniləşdirilməsi, auditoriyaların təmiri, ümumtəhsil məktəbləri və xarici ölkələrin pedaqoji kadr hazırlığını həyata keçirən ali məktəbləri ilə əlaqələrin genişləndirilməsi, qəbul imtahanlarında yüksək bal toplayan tələbələrin universitetə cəlb edilməsi, müəllim kadrları hazırlığının nəzəri və praktiki problemləri ilə bağlı respublika və beynəlxalq səviyyəli konfransların keçirilməsi, xarici və milli təhsil ekspertlərinin, elm və sənət adamlarının iştirakı ilə "Pedaqoji Forum"un təşkili, beynəlxalq və regional layihələrdə iştirak, filiallarda müəllimlərin iştirakı ilə keçirilən görüşlər son illər icra olunan işlərin əsas istiqamətlərini təşkil edir.

Universitetin “Səbail” tədris korpusunda yerləşən 14 mərtəbəli binanın üzlük hissəsi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun köməyi ilə tam yeniləndi.

Universitetimizdə nəşr olunan “Pedaqoji Universitetin Xəbərləri”, “Tarix, insan və cəmiyyət”, “Fizika, riyaziyyat və informatika tədrisi”, “Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri”, “Təhsildə İKT” jurnallarının elmi səviyyəsi yüksəldildi və dövriliyi təmin olundu. Respublikada ilk dəfə olaraq ADPU-da “Magistrant” dövri elmi-jurnalının nəşrinə başlanıldı. Jurnalın ilk nömrəsi universitetin 100 illiyi ərəfəsində nəşr olundu.

2018-ci ildə “Clarivate Analytics” şirkəti tərəfindən ADPU elmi məqalələrin nəşrində inkişaf sürətinə görə son 3 ilin “Web of Science” elmi bazasının “Ən mütərəqqi Universiteti” mükafatına layiq görüldü.

ADPU-nun Elmi Şurası tərəfindən 24 oktyabr 2018-ci ildə təsdiq edilən “Adlı təqaüdlər haqqında” Əsasnamənin tələblərinə uyğun olaraq, müxtəlif ixtisaslar (və ya fakültələr) üzrə tələbələr üçün xüsusi təqaüdlər təsis edilib. Həmin təqaüdlər dövlət sifarişi və ya ödənişli əsaslarla təhsil almalarından asılı olmayaraq, semestri (birinci tədris ilinin birinci semestri istisna olmaqla) ən yüksək nailiyyətlərlə başa vuran tələbələrə təyin olunur. *Universitet üzrə ən yüksək nəticə göstərən tələbəyə Heydər Əliyev, fakültələr üzrə uğurlu nəticəyə sahib olan tələbələrə isə Nizami, Abbasqulu ağa Bakıxanov, Yusif Məmmədəliyev, Zahid Xəlilov, Həsən Abdullayev, Üzeyir Hacıbəyli, Mehdi Mehdizadə, Qafur Rəşad Mirzəzadə, Abdulla Şaiq adına təqaüdlər verilir*. Universitet Elmi Şurasının 02 mart 2022-ci il tarixli qərarı ilə 2022-2023-cü tədris ilindən etibarən universitetə ən yüksək balla qəbul olunan tələbəyə bir il müddətinə *Firudin bəy Köçərli adına təqaüd* veriləcək.

İnnovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən yüksək nüfuza malik təhsilverənlərin yeni nəslinin formalaşdırılması məqsədilə kafedra müdiri, professor, dosent, baş müəllim və müəllim vəzifələrinin tutulması qaydalarında Elmi Şuranın qərarı ilə edilmiş dəyişiklik qısa bir vaxtda həm seçkidə iştirak edənlərin, həm də universitet əməkdaşlarının seçki sistemi və tədris prosesi ilə bağlı baxışlarında köklü dəyişiklik yaratdı. Elmi-metodik hazırlığı, İKT bacarığı, yeni təlim texnologiyalarına bələdliyi ilə seçilənlər uğur qazana bildilər.

Ali pedaqoji təhsilin məzmunu, idarəetmə, insan resursları, infrastrukturun yeniləşdirilməsi sahəsində aparılan islahatlar, sağlam, şəffaf və obyektiv təhsil mühitinin yaradılması, Bakı məktəblərinin yuxarı sinif şagirdləri, qabaqcıl məktəb direktorları, ustad müəllimlər, valideynlərlə “Açıq qapı” günlərinin keçirilməsi, müəllimlik peşəsi ilə bağlı söhbətlərin aparılması qəbulda yüksək bal toplayan

abituriyentlərin ADPU-ya marağının artmasına səbəb olmuşdur. İldən-ilə universitetə və onun filiallarına yüksək balla daxil olan tələbələrin, MİQ imtahanlarında uğur qazanan məzunların sayı dinamik şəkildə artır. Belə ki, 2016/17-ci tədris ilində ADPU-ya qəbul olunanlar arasında 500-dən çox bal toplayanların sayı 117 idisə, 2018/19-cu tədris ilində bu göstərici 527 olmuşdur. Əgər 2015/16-cı təd ris ilində MİQ imtahanlarında məzunların cəmi 61 nəfəri 50-60 bal toplamışdısa, 2019/20-ci tədris ilində belə məzunların sayı 347 nəfər olmuşdur. 2020/21-ci tədris ilində məzunlardan 298 nəfəri respublikamızın və xarici ölkələrin universitetlərinin magistratura səviyyəsinə qəbul olunmuşdusa, 2021/22-ci tədris ili üzrə magistraturaya qəbul imtahanlarında iştirak edib ixtisas seçiminə buraxılanların sayı 956-dır.

Son illərdə universitetin beynəlxalq əlaqələri xeyli genişlənmiş, Avropa və MDB ölkələrinin 53 nüfuzlu universiteti ilə əməkdaşlıq müqaviləsi imzalanmışdır. Türkiyə Respublikasının müxtəlif universitetləri ilə ikitərəfli əməkdaşlıqdan əlavə, "Mövl anə" mübadilə proqramı çərçivəsində də əmək daşlıq edilir. Ümumiyyətlə, ikitərəfli əməkdaşlıq görüşləri xeyli genişlənib, müxtəlif xarici ölkələrin ali təhsil müəssisələrinin, səfirliklərin, beynəlxalq təşkilatların nümayəndələri ADPU-da qonaq olub, əlaqələrin genişləndirilməsi istiqamətində danışıqlar aparılıb, niyyət protokolları imzalanıb.

ADPU-nun beynəlxalq təşkilat və qurumlarla əlaqəsini daha da genişləndirmək məqsədilə Avropa Müəllim Hazırlığı Şəbəkəsi (ETEN) tərəfindən İsveçin Goteburq şəhərində keçirilən konfransda, Danimarkanın Kopenhagen şəhərindəki Universitet Kollecində (UCC) əməkdaşlıq çərçivəsində keçirilən görüşdə, Universitet Prezidentlərinin Beynəlxalq Assosiasiyasının Vyanada (Avstriya) keçirilən "Təhsildə İnnovasiya" adlı konfransında iştirak edilmişdir. Universitetin nüfuzunun yüksəldilməsi və təhsilin keyfiyyətinin artırılması ilə bağlı bir sıra tədbirlər və layihələr həyata keçirilir. Bu baxımdan ABŞ-ın Corc Vaşinqton Universiteti ilə magistr hazırlığı ilə bağlı ikili diplom proqramı layihəsini xüsusi qeyd etmək olar. 31 yanvar 2020-ci il tarixində Azərbaycan Dövlət Pedaqoji Universiteti və Corc Vaşinq ton Universiteti ara sın da ikili diplom proqramı üzrə saziş imzalanmışdır. Həmin sazişin şərtlərinə görə, 2020/21 və 2021/22-ci tədris illərində menecment (təhsilin təşkili və idarəo  lunması) ixtisasına 25 nəfər magistrant qəbul olunmuşdur.

Universitetdə ilk dəfə olaraq magistratura səviyyəsində təhsil üzrə MBA (təhsilin təşkili və idarə edilməsi), təlim və tədrisin təşkili və metodikası üzrə SABAH magistratura və gənclərlə iş ixtisasl aşmaları üzrə mütəxəssis hazırlığına başlanılmışdır.

2021/22-ci tədris ilində biznesin təşkili və idarə olunması (təhsilin təşkili və idarə edilməsi) ixtisaslaşmasına 48, təlim və tədrisin təşkili və metodikası

ixtisaslaşmasına (SABAH) 23, gənclərlə iş ixtisaslaşmasına 5 magistrant qəbul olunmuşdur. Fizika, texnologiya, riyaziyyat, informatika, kimya və biologiya müəllimliyi ixtisaslarında STEAM bacarıqları olan yeni nəsil müəllimlərin hazırlanması yönündə işlər aparılır.

ADPU-da STEAM laboratoriyası yaradılıb, seçilmiş professor-müəllim heyətinə Təhsil İnstitutu ilə birlikdə müvafiq təlim lər keçirilib və yeni tədris ilindən yuxarıda qeyd olunan ixtisasların tələbələrinə “STEAM” fənni tədris ediləcəkdir. Həmçinin inklüziv təhsil yanaşmasının geniş tətbiqinə və müvafiq ixtisaslarda inklüziv təhsil fənninin tədrisinə başlanılır.

Azərbaycan Respublikası ilə xarici ölkələr arasında təhsil sahəsində imzalanmış ikitərəfli sazişlər çərçivəsində və ya ADPU-nun əcnəbi vətəndaşlarla birbaşa bağladığı müqavilələr əsasında universitetdə 78 əcnəbi tələbə və magistrant, 85 əcnəbi dinləyici təhsil almışdır. Hazırda 180-dən çox əcnəbi vətəndaş ADPU-nun hazırlıq, bakalavriat və magistratura səviyyələrinin müxtəlif ixtisaslarında təhsil alır. Onların arasında Türkiyə, Rusiya, Gürcüstan, Çin, Türkmənistan, Suriya, Ukrayna vətəndaşları vardır.

2016-2019-cu illərdə ADPU-nun 68 əməkdaşı xarici universitetlər və təşkilatlar tərəfindən keçirilən seminar, konfrans və təlimlərdə iştirak etmiş, 6 tələbəsi mübadilə proqramı çərçivəsində xaricdə təhsil almışdır. Hazırda Pedaqoji Universitetin Filologiya (dekan əvəzi prof. Mahirə Hüseynova), Tarix və coğrafiya (dekan əvəzi dos. Asif Axundov), Riyaziyyat (dekan dos. Araz Fərəcov), Kimya və biologiya (dekan dos. Elnarə Mehbalıyeva), Məktəbəqədər təhsil (dekan prof. Şəhla Əliyeva), İncəsənət və fiziki tərbiyə (dekan dos. Laçın Həsənova), Fizika (dekan dos. Arzu Daşdəmirov), İbtidai təhsil (dekan prof. Fərrux Rüstəmov) fakültələrində, Sabah mərkəzində (dos. Lalə Mürsəlbəyova), Ağcabədi (direktor dos. Mobil Məcidov), Cəlilabad (direktor dos. Xudayar Sultanlı), Quba (direktor dos. Yusif Alıyev), Şamaxı (direktor dos. Tünzalə Yusifova), Şəki (direktor dos. Rafiq Rəsulov) filiallarında və nəzdindəki Azərbaycan Dövlət Pedaqoji Kollecində (direktor dos. İsrayıl İsgəndərov) 18218 tələbənin təlim-tərbiyəsi ilə 1553 nəfər professor-müəllim və 652 nəfər tədris-köməkçi heyət məşğul olur.

Universitet əməkdaşları tərəfindən aparılan elmi-tədqiqat işlərinin səviyyəsi ildən-ilə yüksəlir, onların tətbiqi imkanları genişlənir. Yalnız 2020-ci ildə 791 nəfər əməkdaş elmi-tədqiqat işlərinə cəlb edilmiş, 54 istiqamətdə, 166 problem, 521 mövzu üzrə tədqiqat aparılmışdır. 56 iş tədris prosesində tətbiq olunmuşdur. Aparılmış elmi-tədqiqat işlərinin nəticələri əsasında 12 monoqrafiya, 16 dərslik, 45 dərs vəsaiti, 178 proqram və metodik vəsait, 862 məqalə (321-i xaricdə, 23-ü impakt-faktorlu jurnalda) və 226 tezis (122-si xa ric də) çap olunmuşdur.

Son illərdə ADPU-da müxtəlif elm sahələrində innovasiyaların tətbiqi, müvafiq ixtisaslar üzrə aparıcı mütəxəssislərin tədris prosesinə cəlb edilməsi və birgə elmi tədqiqatların aparılması üçün AMEA-nın elmi təşkilatları və institutları ilə əməkdaşlıq genişləndirilmişdir. AMEA-nın Riyaziyyat və Mexanika İnstitutu, Akademik H.Abdullayev adında Fizika İnstitutu, akademik Ə.Hüseynov adına İdarəetmə Sistemləri İnstitutu, Nizami adına Ədəbiyyat İnstitutu, Nəsimi adına Dilçilik İnstitutu, Folklor İnstitutu, akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu, akademik Ə.M.Quliyev adına Aşqarlar Kimyası İnstitutu, Kataliz və Qeyri-Üzvi Kimya İnstitutu, Coğrafiya İnstitutu, Topraqşünaslıq və Aqrokimya İnstitutu, Tarix İnstitutu, Arxeologiya və Etnoqrafiya İnstitutu, Fəlsəfə İnstitutu, Şərqşünaslıq İnstitutu, habelə oxşar profilli ali təhsil müəssisələri ilə sıx əlaqələr qurulmuşdur.

Rəqabətədavamlı insan kapitalının formalaşdırılmasında yeni düşüncəyə, təhsil-tərbiyə texnologiyasına, əxlaqi və mənəvi saflığa, yüksək peşə və ixtisas hazırlığına, ümummədəni səriştələrə malik müəllim kadrlarının hazırlığı, onların dövlətə və dövlətçiliyə sədaqət ruhunda tərbiyəsi Azərbaycan Dövlət Pedaqoji Universitetinin professor-müəllim kollektivinin əsas hədəflərindəndir. Bu məqsədlə universitetdə ulu öndər Heydər Əliyevin xatirəsi əbədiləşdirilmiş, abidəsi qoyulmuş, Heydər Əliyev Məktəbinin lektoriyası və Heydər Əliyev Mərkəzi yaradılmışdır. Mərkəzin nəzdində 2007-ci ildən Heydər Əliyev Muzeyi fəaliyyət göstərir. Mərkəzdə və muzeydə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən kitablar, məcmuələr, jurnallar, fotoşəkillər, arxiv sənədlərinin surətləri və digər eksponatlar saxlanılır. Mərkəzin əsas vəzifəsi ümummilli liderə aid materialları sistemləşdirmək və nümayiş etdirməkdən, onun ictimai-siyasi və nəzəri irsi ilə bağlı tədqiqatlar aparmaqdan, müxtəlif səpkili tədbirlər və sərgilər təşkil etməklə ulu öndərin zəngin həyat yolunu, ideya-nəzəri irsini və dövlətçilik təcrübəsini universitetin əməkdaşları, tələbələri və qonaqları, tərəfdaşlıq etdiyi ümumtəhsil məktəblərinin şagirdləri arasında təbliğ etməkdən ibarətdir.

Hər tədris ilində təsdiq edilən iş planı və qrafik əsasında mərkəzdə “Heydər Əliyev dərsləri”, konfranslar, seminarlar, dəyirmi masalar, diskussiyalar, müsabiqələr, bilik yarışları keçirilir, dinləyicilərə Heydər Əliyevin həyat və fəaliyyəti haqqında ətraflı məlumat verilir. Ulu öndərin irsində Vətən sevgisi, azərbaycançılıq məfkurəsi, dil sevgisi, milli mədəniyyət sevgisi, xalqına, dövlətinə sədaqət hissi mühüm yer tutur. Bu irsin qorunması və gələcək nəsillərə çatdırılması, hər bir gəncdə azərbaycançılıq hissinin formalaşdırılması ən vacib vəzifələrdəndir.

İkinci Qarabağ müharibəsi göstərdi ki, məktəblərimizdə təhsil alan nəslin azərbaycançılıq ideologiyası əsasında tərbiyə edilməsi Azərbaycan müəllimlərinin və həmin müəllimləri hazırlayan ali pedaqoji təhsil müəssisələrinin fəaliyyətinin

əsasını təşkil edir. Cəsarətlə deyə bilərik ki, Azərbaycan məktəbi və Azərbaycan müəllimi Vətən müharibəsi imtahanından uğurla çıxdı. Məhz bu məktəblərdə müəllimlərdən əxlaq, mənəviyyat, düşmənə nifrət dərsi alan, şəhidliyin fəlsəfəsini dərk edənlər öz qanları və canları hesabına təcavüzkarı təslim aktını imzalamağa məcbur etdilər.

30 ildən artıq düşmən tapdağı altında qalan torpaqlarımızın müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qaytarılması tariximizin ən parlaq səhifəsinə çevrildi. Ulu öndər Heydər Əliyev böyük uzaqgörənliklə deyirdi ki, mənim görüb başa çatdırm adığım işləri Azərbaycan xalqının dəstəyi ilə İlham Əliyev başa çatdıracaq. Ulu öndərin arzusunda olduğu, lakin başa çatdıra bilmədiyi ən birinci vəzifə isə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, torpaqlarımızın işğaldan azad edilməsi idi. Prezident İlham Əliyev hərb meydanında müzəffər sərkərdə kimi mümkünsüzü mümkün etdi, informasiya müharibəsində böyük diplomat kimi haqq səsimizi bütün dünyaya çatdırdı. Bu tarixi qələbə cənab Prezidentin 17 illik daxili və xarici siyasətinin məntiqi nəticəsi oldu. 44 gün ərzində rəşadətli Silahlı Qüvvələrimiz Ali Baş Komandanın rəhbərliyi ilə Ermənistan ordusunu darmadağın edərək şanlı Zəfər salnaməsi yazdı.

Vətən müharibəsində misilsiz qəhrəmanlıq göstərən əsgər və zabitlərin sırasında Azərbaycan Dövlət Pedaqoji Universitetinin tələbə və məzunları da var. 44 günlük savaşda torpaqlarımızın mənfur düşməndən azad olunması yolunda canlarından keçmiş şəhidlərimizdən 13 nəfəri – Ağaqardaş Abbasov, İlkin Ağaquliyev, Elgün Əzizov, Ehtiram Hüseynli, Rəvan Lətifov, Cilingir Nəbiyev, Orxan Nəbiyev, Ceyhun Nüsrətli, Qoşqar Ömərov, Firdovsi Tahirov, Elvin Zakirov, Əli Ələsov və yeganə xanım şəhidimiz Arəstə Baxışova müxtəlif illərdə Pedaqoji Universiteti bitirmişlər.

Ümumilikdə ADPU-nun, onun filialları və tərkibindəki Pedaqoji Kollecin tələbə və məzunları olmuş, habelə universitetə rəhbərlik etmiş şəxslərdən 8 nəfəri İkinci Dünya müharibəsi iştirakçısı (4 nəfəri Sovet İttifaqı Qəhrəmanı, 4 nəfəri ADPU-nun rektoru (onların 2-i həm də ADPU-nun məzunudur)), 3 nəfəri Azərbaycanın Milli Qəhrəmanı, 1 nəfəri “Zəfər” Ordeni ilə, 4 nəfəri “Azərbaycan Bayrağı” Ordeni ilə təltif edilmiş, 29 nəfəri (onlardan 7 nəfəri ADPK-nın tələbə və məzunlarıdır) Birinci Qarabağ müharibəsi şəhidi, 13 nəfəri (onlardan 2 nəfəri Şamaxı Filialının, 1 nəfəri Ağcabədi Filialının, 3 nəfəri ADPK-nın tələbə və məzunlarıdır) Vətən müharibəsi şəhidi, 46 nəfəri Birinci Qarabağ müharibəsi iştirakçısı, 10 nəfəri Aprel döyüşləri iştirakçısı (onlardan 8 nəfəri həmçinin Vətən müharibəsi iştirakçısıdır) və 183 nəfəri isə Vətən müharibəsi iştirakçısıdır.

Ölkə Prezidentinin imzaladığı Sərəncama müvafiq olaraq 17 dekabr 2021-ci il tarixində Heydər Əliyev Mərkəzində Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubiley mərasimi keçirildi.

Təntənəli mərasimdə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Milli Məclisin deputatları, dövlət və hökumət rəsmiləri, elmi ictimaiyyətin nümayəndələri iştirak etdilər.

Tədbirdə əvvəlcə Dövlət Himni səsləndirildi, Vətən müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla anıldı.

Yubiley mərasimində çıxış edən ADPU-nun rektoru professor Cəfər Cəfərov Prezident İlham Əliyevin “Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncamında ADPU-nun zəngin və məhsuldar inkişaf yoluna xüsusi qiymət verildiyini diqqətə çatdırıb. Son illər ərzində ali təhsil müəssisəsində görülən işlərdən və aparılan islahatlardan, əldə olunan nəticələrdən danışdı.

Tədbirdə çıxış edən təhsil naziri Emin Əmrullayev vurğuladı ki, Pedaqoji Universitetin ölkədə istər təhsil, istərsə də elmin inkişafında müstəsna rolu olub. Universitetin məzunları həm təhsil, həm də çalışdıqları digər sahələrdə ölkənin ümumi inkişafına, sosial-iqtisadi və mədəni tərəqqisinə kifayət qədər sanballı töhfələr veriblər.

Daha sonra çıxış edən ADPU-nun gənc müəllimi, psixologiya üzrə fəlsəfə doktoru Səbinə Əlizadə, universitetin TGT sədri, ATGTİ-nin sədr müavini, IV kurs tələbəsi İsmayıl Nəsirov ADPU-nun təhsil sahəsindəki rolundan söz açıb, professor-müəllim heyətini təbrik edərək uğurlar arzuladılar.

Mərasimdə ADPU-nun 100 illiyinə həsr edilmiş film nümayiş olundu, ədəbi-bədii hissə və konsert proqramı, rəsm və yubiley nəşrlərinin sərgisi təqdim edildi.

Qeyd edək ki, ADPU-nun 100 illik yubileyi çərçivəsində 8 kitab hazırlanaraq nəfis tərtibatda nəşr olunmuşdur.

Professor Fərrux Rüstəmovun müəllifi olduğu “**Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarixi (1921-2021)”** irihəcmli əsərin I cildində ADPU-nun təşəkkülü və inkişafının bir əsrlik tarixi zəngin elmi mənbələr və arxiv sənədləri əsasında şərh olunur. Azərbaycanda ziyalı təbəqəsinin və elmi-pedaqoji potensialın formalaşmasında, yüksəkixtisaslı müəllim kadrlarının hazırlanmasında universitetin müstəsna rolundan bəhs edilir.

II cilddə hazırda universitetin müasir idarəetmə strukturu – rektorluq, prorektorluq, fakültələr, kafedralar, şöbələr və bölmələr, SABAH qrupları, filiallar, müstəqil fəaliyyət göstərən qurumlar və Azərbaycan Dövlət Pedaqoji Kolleci haqqında məlumatlar öz əksini tapıb.

**“Azərbaycan Dövlət Pedaqoji Universitetinin professorları”** kitabının da müəllifi professor Fərrux Rüstəmovdur. Əsərdə ADPU-nun bir əsrlik tarixi onu yaradan, inkişaf etdirən və sabaha aparan alimlərin simasında təqdim edilir.

**“Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları”** kitabında isə professor Fərrux Rüstəmov təhsil ocağının təşkilində, inkişafında və idarə edilməsində mühüm xidmətləri olan 31 rektor (direktor), həmçinin Ali Pedaqoji İnstitutun nəzdindəki A.Şaiq “Nümunə məktəbi”nin müdiri Qafur Əfəndizadə, Ali Pedaqoji Qadın İnstitutunun ilk və son direktoru Sara xanım Xuramoviç haqqında oçerklər təqdim edib.

Professor Asəf Zamanovun müəllifi olduğu **“Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 məşhur məzunu”** kitabında ADPU-nun məşhur məzunları - AMEA-nın prezidentləri, vitse-prezidentləri, həqiqi və müxbir üzvləri, dövlət xadimləri, generallar, əməkdar elm xadimləri, xalq şairləri, xalq yazıçıları və başqaları haqqında ensiklopedik məlumatlar verilir.

**“Azərbaycan Dövlət Pedaqoji Universitetinin Qəhrəmanları”** ensiklopedik toplusunda Pedaqoji Universitetin yarandığı vaxtdan bu günə qədər yetişdirdiyi 160 mindən çox yüksəkixtisaslı məzunları, tələbələri, ali təhsil müəssisəsinə rəhbərlik edənlərin xüsusi bir qrupu ilə, - canlarını və qanlarını Vətən yolunda fəda edən qəhrəmanlarla tanışlıq imkanı əldə etmək mümkündür. Əsər ali təhsil müəssisələrində bu sahədə aparılan ilk sistematik tədqiqatdır. Kitabın müəllifi Taleh Mirzəyevdir.

Müəllifin **“Azərbaycan Dövlət Pedaqoji Universiteti. 100 ilin şahidləri”** fotoalbomunda isə universitetin keçdiyi bir əsrlik zəngin elmi-pedaqoji yol arxiv materialları əsasında fotoların dili ilə xronoloji ardıcıllıqla təqdim olunur.

ADPU-nun Pedaqogikanın nəzəriyyəsi və tarixi ixtisaslaşması üzrə I kurs magistrantı Asim İbrahimovun tərtib etdiyi **“Azərbaycan Dövlət Pedaqoji Universiteti. 100 il 100 fakt”** albom-kitabda universitetin bir əsrlik zəngin tarixi ən maraqlı 100 fakt işığında qısaca göz önündə canlanır.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyi münasibəti ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 17 dekabr 2021-ci il tarixində imzaladığı Sərəncamlarla Universitetin professor-müəllim heyətindən 1 nəfər “Şöhrət” ordeni, 6 nəfər 3-cü dərəcəli “Əmək” ordeni, 17 nəfər “Tərəqqi”

medalı, 1 nəfər “Azərbaycan Respublikasının Prezidentinin fərdi təqaüdü” , 4 nəfər “Azərbaycan Respublikasının Prezidentinin fəxri diplomu”, 24 nəfər isə “Əməkdər müəllim” fəxri adı ilə təltif olunub. Ümumilikdə 53 nəfər təltif edilib.

Azərbaycan Respublikasının Təhsil nazirinin 29 dekabr 2021-ci il tarixli 1535 №-li əmri ilə Pedaqoji Universitetin daha 166 əməkdaşı təltif olundu. Onlardan 87 nəfəri “Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi” döş nişanı, 79 nəfəri isə “Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri Fərmanı” ilə təltif olunub.

Bu təltiflər ADPU-nun fəaliyyətinin nəticələrinə verilən ali qiymətin daha bir təcəssümü olmaqla Universitetdə aparılan davamlı inkişaf yoluna işıq saçır.

ADPU “Ənənələrə sadiq, yeniliklərə açıq!” şüarı ilə fəaliyyətinin növbəti yüzilliyində tədqiqat və innovasiya universiteti olmaq üçün öz tarixi kökü üzərində əzmlə irəliləyir.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti – bir əsrdən boylanan möhtəşəm elm və təhsil məbədi**

2021-ci ildə ölkəmizin ən qocaman ali təhsil ocaqlarından biri olan Azərbaycan Dövlət Pedaqoji Universitetinin yaradılmasının 100-cü ildönümü tamam oldu. Azərbaycan ziyalılarının milli təəssübkeşliyi, əzmkarlığı və fədakarlığı sayəsində yaradılmış universitet çətin, mürəkkəb və şərəfli bir yol keçmiş, milli düşüncənin inkişafına, pedaqoji və elmi-pedaqoji kadrların hazırlığına əvəzsiz töhfələr verən şöhrətli təhsil və elm müəssisəsinə çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il aprelin 17-də **"Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyinin qeyd edilməsi haqqında"** Sərəncamı bir əsr ərzində əldə olunmuş nailiyyətlərə verilmiş ən yüksək qiymətdir. Sərəncamda universitetin ölkəmizin inkişafındakı xüsusi rolu vurğulanaraq qeyd olunur: *"İxtisaslaşmış ali təhsil müəssisəsi kimi Azərbaycan Dövlət Pedaqoji Universiteti müəllim hazırlığı sahəsində və pedaqoji təhsilin inkişafı naminə bu gün də uğurlu fəaliyyəti ilə müstəqil Azərbaycanın inkişafına töhfələrini əsirgəmir. Universitetdə qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından faydalanmaqla ali təhsilin məzmun və keyfiyyət göstəricilərinin təkmilləşdirilməsi istiqamətində zəruri addımlar atılır".*

Sözügedən Sərəncama müvafiq olaraq 2021-ci ilin 17 dekabr tarixində Heydər Əliyev Mərkəzində universitetin möhtəşəm yubiley mərasimi keçirildi. Universitet əməkdaşları ölkə başçısının sərəncamı və təhsil nazirinin əmri ilə müxtəlif dövlət təltifləri və fəxri adlara layiq görüldülər.

Zəngin ənənəyə malik ali təhsil ocağı 1921-ci ilin 26 avqustunda Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun imzaladığı dekret əsasında cəmi 8 müəllim və 6 tələbə ilə fəaliyyətə başlamışdır. Dekretdə deyilirdi: "*Respublikanın vahid əmək məktəbinin ideyalarını həyata tətbiq etməyə qabil yüksək ixtisaslı maarif işçiləri hazırlamaq məqsədilə bu ilin sentyabr ayının 1-dən etibarən Bakı şəhərində II dərəcəli şura məktəbliləri üçün t**ürk dilində müəllimlər hazırlaya biləcək Azərbaycan Dövlət Pedaqoji Kişi İnstitutu** təsis edilsin".*

Dekretin imzalanmasından xeyli əvvəl Pedaqoji İnstitutun təşkili ilə bağlı müəyyən hazırlıq işləri aparılmış, bu məqsədlə hələ 1920-ci ilin sonunda xüsusi komissiya yaradılmışdı. N.Nərimanov komissiya üzvlərini qəbul edən zaman öz razılığını bildirərək demişdi: *"Mən görürəm, maarifin haradan başlanmasını ruhən düzgün düşünmüş və Azərbaycan xalqının nicatı yolunu görüb bütün həyatınızı ona həsr etmişsiniz. Azərbaycan Respublikası bu zəhmətinizi hər zaman təqdir edəcək. Azərbaycan xalqı həmişə sizi yad edəcəkdir".*

Böyük elmi-pedaqoji kollektivə və çoxminli tələbə kontingentinə sahib olan Azərbaycan Dövlət Pedaqoji Universitetinə çevrilənədək bu təhsil müəssisəsi uzun bir yol qət etmiş, son 100 il ərzində 160 mindən çox yüksək ixtisaslı müəllim kadrları yetişdirməklə ölkəmizin sosial-mədəni inkişafında mühüm rol oynamışdır. Pedaqogika, psixologiya və ayrı-ayrı fənlərin tədrisi metodikası məhz bu ali məktəbdə təşəkkül tapmışdır. Eyni zamanda, bir əsrlik fəaliyyəti dövründə Pedaqoji Universitet yalnız Azərbaycan üçün deyil, Gürcüstan, Mərkəzi Asiya respublikaları, Bolqarıstan və digər ölkələr üçün də yüksək səviyyəli müəllim və elmi kadr hazırlığı işini uğurla həyata keçirmişdir.

Pedaqoji Universitet Azərbaycanda elm və təhsilin inkişafına sanballı töhfələr verən tanınmış alimlər yetişdirmiş, paralel olaraq, həm də elmi mərkəz kimi formalaşıb inkişaf etmişdir. Xalqımızın fəxr etdiyi yüzlərlə görkəmli alim, yaradıcı ziyalı, ictimai və dövlət xadimi bu universitetdə təhsil almışdır. Universitetin məşhur məzunları sırasında Məmməd Arif Dadaşzadə, Həmid Araslı, Mehdi Mehdizadə, Budaq Budaqov, Mikayıl Müşfiq, Süleyman Rəhimov, Mehdi Hüseyn, Şıxəli Qurbanov, İsmayıl Şıxlı, İlyas Əfəndiyev və bir məqalədə adını çəkə bilmədiyimiz onlarla digər ziyalını göstərmək olar. Böyük fəxrlə deyə bilərik ki, Azərbaycan Milli Elmlər Akademiyasının 11 prezidentindən üçü – Yusif Məmmədəliyev (2 dəfə), Zahid Xəlilov və Həsən Abdullayev, 5 vitse-prezidenti – Heydər Hüseynov, Səməd Vurğun, Zahid Xəlilov, Əlisöhbət Sumbatzadə və İsa Həbibbəyli məhz bizim universitetin məzunlarıdır. Sovet İttifaqı Qəhrəmanları Mehdi Hüseynzadə, Xıdır Mustafayev, Fariz Səfərov, Səlahəddin Kazımov, Sosialist Əməyi Qəhrəmanları Səfa İmanov, Zərbəli Səmədov, Rüstəm Səfərəliyev, Vətənin ərazi bütövlüyü uğrunda mənfur düşmənlə mübarizə aparmış Azərbaycanın Milli Qəhrəmanları Mirələkbər İbrahimov, Mətləb Quliyev, Şakir Salahov, “Zəfər” ordenli general-polkovnik Əli Nağıyev, “Azərbaycan Bayrağı” ordenli Malik Bayramov, Mürşid Məmmədov, böyük qələbə çaldığımız 44 günlük Vətən müharibəsində torpaqlarımızın mənfur düşməndən azad olunması yolunda canlarından keçmiş şəhidlərimizdən 13 nəfəri – Ağaqardaş Abbasov, İlkin Ağaquliyev, Elgün Əzizov, Ehtiram Hüseynli, Rəvan Lətifov, Cilingir Nəbiyev, Orxan Nəbiyev, Ceyhun Nüsrətli, Qoşqar Ömərov, Firdovsi Tahirov, Elvin Zakirov, Əli Ələsov və yeganə xanım şəhidimiz Arəstə Baxışova müxtəlif illərdə ADPU-nu bitirmişlər.

Pedaqoji Universitet ölkədə pedaqoji və elmi-pedaqoji kadrların hazırlığını, təkmilləşdirilməsini və ixtisasının artırılmasını həyata keçirən pedaqoji təhsil müəssisələrinin böyük əksəriyyətinin yaradılmasında ilkin baza rolunu oynamış, onların sonrakı inkişafına yaxından dəstək göstərmişdir. Azərbaycan Elmi- Tədqiqat Pedaqoji Elmlər İnstitutu (indiki Təhsil İnstitutu), 30-40-cı illərdə fəaliyyət göstərən

ikiillik müəllimlər institutları, indiki Gəncə Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti və Bakı Slavyan Universiteti ya Pedaqoji İnstitutun ayrı-ayrı fakültələrinin bazasında yaradılmış, ya da institutun pedaqoji kadrlarının köməyi ilə fəaliyyətə başlamışdır.

Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan filialının (1967-1972) əsasında Y.Məmmədəliyev adına Naxçıvan Pedaqoji İnstitutu, onun bazasında isə sonralar Naxçıvan Dövlət Universiteti formalaşmışdır. 1967-ci ildə 3 ixtisas üzrə 102 tələbə və 3 müəllimlə fəaliyyətə başlayan indiki Naxçıvan Dövlət Universitetində hazırda 6 minə yaxın tələbə təhsil alır.

1969-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi fəaliyyətə başlayan Xankəndi Pedaqoji İnstitutu 1973-cü ildə müstəqil ali məktəbə çevrilmiş və 16 may 1988-ci ilə kimi fəaliyyət göstərmişdir. 1988-ci ildə erməni millətçiləri tərəfindən Xankəndidən qovulan institutun Azərbaycan bölməsinin müəllim və tələbələri bir müddət Gəncə Pedaqoji İnstitutunda yerləşmiş, sonra isə Şuşaya qayıtmışlar. Pedaqoji İnstitutun Şuşa fakültəsi, onun əsasında isə Şuşa filialı yaradılmışdır. Həmin filial hazırda Ağcabədi filialı kimi ADPU-nun nəzdində fəaliyyət göstərir.

Ümumiyyətlə, bu gün elə bir təhsil müəssisəsi (məktəbəqədər, ümumtəhsil, texniki-peşə, orta ixtisas, ali), elmi idarə, təşkilat və ya təhsillə bağlı QHT yoxdur ki, orada Pedaqoji Universitetin məzunları çalışmasın. Məzunlarımız həm də ayrı-ayrı dövlət orqanlarında, nazirlik, komitə və agentliklərdə, güc strukturlarında, özəl qurumlarda uğurla fəaliyyət göstərirlər.

Qeyd edək ki, ADPU-nun 100 illik tarixinin bütöv bir mərhələsində (1969-1987 və 1993-2003-cü illər) qazanılan uğurlar bilavasitə ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev 5 dəfə ADPU-da olmuşdur. Ulu öndərin institutun 60 illik yubileyi ilə bağlı təntənəli mərasimdə ***«Azərbaycan Pedaqoji İnstitutu böyük və çətin yol keçmişdir. Onun kollektivi Azərbaycan ümumtəhsil məktəbinin inkişafında böyük xidmət göstərmiş, institut xalq maarifi üçün yüksəkixtisaslı kadrlar ocağına çevrilmişdir.»*** -cümlələri ilə verdiyi yüksək qiymət institut əməkdaşlarının sonrakı fəaliyyətinə yeni, sağlam nəfəs vermişdir.

Sözsüz ki, bütün bu islahatlar ali təhsildən, xüsusən də orta ümumtəhsil sisteminə birbaşa təsir edən pedaqoji ali təhsildən yan keçə bilməz. Bu baxımdan, ölkəmizin əsas pedaqoji ali təhsil müəssisəsi olan ADPU-da da bütün sahə və istiqamətlər üzrə sürətli inkişaf və yenilənmə prosesləri gedir.

Bu gün Bakıdakı 4 tədris korpusu, Quba, Şamaxı, Şəki, Ağcabədi və Cəlilabaddakı filialları, tərkibindəki Azərbaycan Dövlət Pedaqoji Kolleci və Bakı şəhərindəki baza məktəbi ilə ölkənin ən böyük və şəbəkələşmiş ali təhsil

müəssisələrindən olan Pedaqoji Universitet, orta məktəblərin tədris proqramlarına daxil olan bütün fənlər üzrə bakalavriat səviyyəsində peşəkar və zəruri bacarıqlara malik müəllimlər yetişdirir. Universitetdə ümumilikdə 18000-dən artıq tələbənin təlimi ilə 2000-dək əməkdaş məşğul olur ki, onların da arasında 70-dən çox elmlər doktoru, professor, yüzlərlə dosent və fəlsəfə doktoru vardır.

Mübaliğəsiz demək olar ki, son illərdə Pedaqoji Universitet keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub. Ali təhsil müəssisəsində həm maddi-texniki baza, həm tədris, həm sosial həyat, həm də elmi fəaliyyət uğurla inkişaf etməkdədir. Dövlət siyasətinin prioritetlərinə uyğun olaraq, bu gün professor-müəllim və tədris-yardımçı heyətin gəncləşdirilməsi prosesi gedir, universitetin məzunları davamlı olaraq doğma təhsil ocağında işə cəlb edilirlər.

Universitetdə imtahanların test üsulundan yazılı formaya keçirilməsi isə sözün əsl mənasında təhsilin keyfiyyətinə öz müsbət təsirini göstərmişdir. Bu minvalla ölkədə müəllim hazırlığı prosesinə yeni sistem gətirilmiş və həmin sistem nisbətən qısa zaman kəsiyində özünü tam doğrulda bilmişdir. Nəticədə məzunlarımızın müəllimlərin işə qəbulu (MİQ) imtahanlarındakı nəticələri son illər təxminən 4 dəfə yüksəlmişdir. Həyata keçirilən tədbirlər, təhsil ocağında imtahan sisteminin daha da şəffaflaşdırılması, tələbə-rəhbərlik münasibətlərinin sadələşdirilməsi və demokratikləşdirilməsi inkişafa sanballı töhfə verən amillərdəndir.

Adlı təqaüdlərin təsis edilməsi, həmçinin tələbələrin digər həvəsləndirici tədbirlərə cəlb olunması, universitet və fakültə rəhbərlərinin onlarla müntəzəm (o cümlədən onlayn) görüşlər keçirməsi təhsilalanlarda tədrisə olan marağı daha da artırır. Razılıq hissilə qeyd etmək olar ki, hazırda universitet tələbələrinin 70 faizə qədəri təqaüd alır. Dövlət təhsil siyasətinin tələblərinə uyğun olaraq, yaxın gələcəkdə bu nisbəti daha da artırmaq istiqamətində işlər aparılır.

Universitetdə tələbələrin maraq dairəsinə uyğun fəaliyyətlərin genişləndirilməsi, onların sosial və digər problemlərinin həllinə dəstək göstərilməsi Pedaqoji Universiteti gənclərimiz üçün səmimi təhsil mühiti yaradılmış məkan kimi daha da cəlbedici edir.

Son 5 ildə ADPU-da müəllimlərin şəffaf seçki sisteminin tətbiqi və təkmilləşdirilməsi yönündə aparılan ardıcıl və məqsəyönlü işlər, demək olar ki, artıq başa çatdırılıb. Hazırda yalnız fakültə dekanları və kafedra müdirləri yox, müəllim və tyutorlar da müsabiqə yolu ilə vəzifəyə seçilirlər. Universitetdə tyutor hazırlığı kursları fəaliyyət göstərir. Bütün bu islahatlar tək Bakıda deyil, ADPU-nun bütün filiallarında və nəzdindəki kollecdə də mütəmadi olaraq davam etdirilir.

Universitetin beynəlxalq əməkdaşlığı ildən-ilə genişlənməkdədir. Mübadilə proqramları çərçivəsində bir çox ölkələrə tələbə və müəllimlərin göndərilməsi

prosesi davam edir. Hazırda ADPU-nun 53 xarici ali təhsil müəssisəsi ilə birbaşa əlaqələri mövcuddur. Türkiyənin 11 universiteti ilə "Mövlanə" proqramı çərçivəsində əməkdaşlıq edilir. Erasmus+ mübadilə proqramı çərçivəsində Erasmus+ tərəfdaş universitetləri arasında tələbə, akademik və inzibati heyətin mübadiləsi mütəmadi olaraq həyata keçirilir. Pedaqoji Universitet Avrasiya Universitetlər Birliyi (EURAS), Kafkasya Universitetlər Birliyi (KÜNİB) kimi beynəlxalq assosiasiyalarla yaxından əməkdaşlıq edir. ADPU həmçinin Avropa Müəllim Hazırlığı Şəbəkəsi (ETEN) və Universitet Prezidentlərinin Beynəlxalq Assosiasiyasının (İAUP) üzvüdür.

Şəffaflıq, keyfiyyət və tələbə məmnuniyyətini hədəfləyən kompleks tədbirlər nəticəsində Pedaqoji Universitetin əldə etdiyi uğurları və tətbiq olunan yenilikləri qısaca nəzərdən keçirməklə inkişaf dinamikasını izləmək mümkündür.

ADPU-nun 2018-2021-ci illər üçün ***"Ənənələrə sadiq, yeniliklərə açıq universitet!"*** şüarı ilə Strateji İnkişaf Planı qəbul olunub və onun icrası artıq tamamlanmaq üzrədir.

Tələbə biliyinin qiymətləndirilməsində test sistemindən yazılı imtahanlara keçid, professor-müəllim heyətinin seçkisinin və işçilərin işə qəbulunun müsabiqə üsulu ilə aparılması nəticəsində tədrisin keyfiyyəti nəzərəçarpacaq dərəcədə yüksəlib.

Keçmiş Azərbaycan Müəllimlər İnstitutu ilə birləşmədən sonra işçi heyətinin sayında və universitetin strukturunda optimallaşdırmanın aparılması, fakültə və kafedraların idarəetmə sisteminin təkmilləşdirilməsi, onlardan bəzilərinin birləşdirilməsi, ixtisasların, təhsil səviyyələri üzrə fənlərin fakültə və kafedralar arasında dəqiq bölgüsü, TÜRKSOY kafedrasının, Təhsil Menecmenti kafedrasının, YUNESKO klubunun yaradılması və s. kimi tədbirlərlə müsbət dinamika əldə olunub (hazırda həmçinin YUNESKO kafedrasının yaradılması ilə bağlı layihə hazırlanır).

ADPU-nun həm də elmi mərkəzə çevrilməsinə yönələn tədbirlər fonunda son illər hazırlanmış 6 elmi tədqiqat layihəsi Elm Fondu tərəfindən dəstəklənmiş, universitetdə Elmi-Tədqiqat Mərkəzi yaradılmış, 6 dövri elmi jurnal təsis edilmiş və onlar Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısı"na daxil edilmişdir. Magistrantların elmi-tədqiqat işlərinin dərc edilməsi məqsədilə Azərbaycanda ilk dəfə "Magistrant" dövri elmi jurnalı təsis edilmişdir və ildə 4 dəfə işıq üzü görür. Universitetin elmi plagiatla mübarizə üzrə daxili sistemi qurulmuşdur. Əməkdaşların beynəlxalq istinadlı jurnallarda çap olunmuş əsərlərinin sayı son 5

ildə dəfələrlə artmışdır. Bu nəticələr “Clarivate Analytics” elmi bazası tərəfindən də qiymətləndirilmiş, ADPU mükafatlandırılmışdır.

Pedaqoji Universitetdə professor-müəllim heyətinin fəaliyyət göstəricilərinin qiymətləndirilməsi üçün işlək mexanizim (reytinq sistemi) yaradılıb. Sistemin tətbiq olunduğu ilk ildə ayda 100, son ildə isə 150 ən yüksək nəticə əldə edən müəllimə əlavə ödənişlərin edilməsinə başlanılıb, keyfiyyət təminatı şöbəsi yaradılıb.

2020-ci ildə universitetin mütəxəssisləri tərəfindən bütün müəllimlik ixtisasları üzrə yeni nəsil təhsil proqramları hazırlanıb və Təhsil Nazirliyi tərəfindən təsdiq edilib. Bu proqramlarda müəllim hazırlığı sahəsində bir sıra digər yeniliklərlə yanaşı, pedaqoji internaturanın təşkili də nəzərdə tutulur.

ADPU-nun SABAH qruplarında 4 ixtisas üzrə tələbələr təhsil alır. Universitetdə cari tədris ilindən bəzi ixtisaslar üzrə ingilis bölməsi yaradılıb. İlk dəfə olaraq magistratura səviyyəsində təhsil üzrə MBA (Təhsilin təşkili və idarə edilməsi), Təlim və tədrisin təşkili və metodikası üzrə SABAH magistratura və Gənclərlə iş ixtisaslaşmaları üzrə mütəxəssis hazırlığına başlanılır. Fizika, texnologiya, riyaziyyat, informatika, kimya və biologiya müəllimliyi ixtisaslarında STEAM bacarıqları olan yeni nəsil müəllimlərin hazırlanması yönündə işlər aparılır. ADPU-da STEAM laboratoriyası yaradılıb, seçilmiş professor-müəllim heyətinə Təhsil İnstitutu ilə birlikdə müvafiq təlimlər keçirilib və yeni tədris ilindən yuxarıda qeyd olunan ixtisasların tələbələrinə “STEAM” fənni tədris ediləcəkdir. Həmçinin inklüziv təhsil yanaşmasının geniş tətbiqinə və müvafiq ixtisaslarda inklüziv təhsil fənninin tədrisinə başlanılır.

Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramına uyğun olaraq, yuxarıda qeyd edildiyi kimi, iki ildir ABŞ-ın Corc Vaşinqton Universiteti ilə birgə magistratura səviyyəsində “Təhsil idarəçiliyi” üzrə beynəlxalq ikili diplom proqramı həyata keçirilir və 50 gənc bu proqramda təhsil alır.

Hazırda ölkənin ikinci ən böyük universitet kitabxanasına malik olan ali təhsil ocağı kimi, BP şirkəti ilə birgə kitabxana fondunun elektronlaşdırılması həyata keçirilib və müasir Kitabxana-İnformasiya Mərkəzi istifadəyə verilib.

Bu gün 100 yaşı tamam olan Pedaqoji Universitet fəaliyyətinin növbəti yüzilliyinə yeni və daha çevik hədəflərlə daxil olur. Necə deyərlər, yubiley, əslində, geriyə baxmaq, görülən işlərə nəzər salıb gələcəyi müəyyənləşdirmək üçün düşünmə imkanıdır. XXI əsrdə – dünyada elm, təhsil və texnologiyaların misli görünməmiş sürətlə inkişaf etdiyi bir şəraitdə Pedaqoji Universitet yüksək ixtisaslı, müasir dünyagörüşlü, milli dəyərlərə sadiq müəllim kadrlarının hazırlanmasını təmin etmək

üçün aşağıda sadalanacaq vəzifələrin yerinə yetirilməsini strateji xətt kimi müəyyənləşdirib. 100 illik yubileydən sonra universitetin 2030-cu ilə hədəflənən yeni strateji inkişaf planında da bu istiqamətlər nəzərə alınacaqdır.

Həmin istiqamətlər, əsasən, aşağıdakıları ehtiva edir:

***Təhsilalanlara Vətən, dövlət və tarix sevgisinin aşılanması:*** Gənc müəllimlər Azərbaycan Respublikasının fəal vətəndaşları kimi Vətənə və müstəqil dövlətimizə bağlı, milli-mənəvi və əxlaqi dəyərlərə sadiq insanlar kimi formalaşdırılmalıdırlar. Onların öz xalqına olan sevgisi valideynlərə sevgidən, torpağa sevgisi böyüdüyü məhəlləyə sevgidən başlayaraq milli-mənəvi sərhədlərimizədək uzanmalıdır.

***Təhsilalanların öz ölkəsinin tərəqqisinə xidmət etməsi*:** Təhsilalanlar müasir dünyanın elmi-texnoloji nailiyyətlərini dərindən mənimsəməli, istifadə etməli, lakin hazır məhsula aludə olmamalı, onun yalnız istehlakçısı deyil, həm də yaradıcısı və istehsalçısı olmağa çalışmalı, bunun üçün daim öz üzərlərində işləməli, bilik və bacarıqlarını durmadan təkmilləşdirməlidirlər.

***Rəqəmsal biliklər və xarici dil bacarıqlarının verilməsi:*** Hər iki bacarıq mütləq yeni nəslə aşılanmalıdır. Bunlardan birincisi, tələb olunan minimum digital biliklər, ikincisi isə, gözəl və zəngin ana dilimizdən sonra xarici dilləri – ilk növbədə, müasir dünyanın elm və texnologiya dili olan ingilis dilini öyrənməkdir.

Ümumiləşdirmə aparsaq, milli-mənəvi dəyərlərə sadiq, Vətənə və dövlətə bağlı, rəqəmsal və xarici dil biliklərinə, geniş və müasir dünyagörüşünə, sağlam və müstəqil maraq dairəsinə sahib olan gənc mütəxəssislər və fəal vətəndaşlar yetişdirmək milli təhsilimizin profilini və prioritetlərini formalaşdırmağa kömək edəcək əsas hədəflərdəndir.

2020-ci ilin 27 sentyabrında başlanan 44 günlük Vətən müharibəsində rəşadətli Silahlı Qüvvələrimiz müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin bilavasitə rəhbərliyi altında təcavüzkar Ermənistan ordusunu darmadağın edərək çoxəsrlik tariximizdə ən möhtəşəm qələbəni qazandı. Düşmən təslim aktını imzalamağa məcbur edildi, işğal altındakı torpaqlarımız qısa zaman kəsiyində geri qaytarıldı. Fəxr edirik ki, Vətən müharibəsində misilsiz qəhrəmanlıq göstərən əsgər və zabitlərimizin sırasında Azərbaycan Dövlət Pedaqoji Universitetinin 200-dək tələbə və məzunu da var. Tarixi qələbənin qazanılmasında payı olan Pedaqoji Universitetin təmsilçiləri olmağımızdan haqlı iftixar hissi keçiririk. Bununla bağlı "Pedaqoji Universitetin Qəhrəmanları" ensiklopedik toplusu hazırlanmışdır.

**...**

***ADPU-da tələbə məmnuniyyətini təmin etmək üçün 6 prorektorluq operativ olaraq iş başındadır.***

**Tədris işləri üzrə prorektorluq.** Prorektorluq universitetdə tədris prosesinin təşkili və idarə edilməsini kompleks halda həyata keçirir. Həmçinin tədrisdə distant və onlayn təlim texnologiyalarının tətbiqini koordinasiya edir, müxtəlif fakültələrdə tədrisin aparılmasına ümumi rəhbərliyi həyata keçirir. Prorektorluğun tərkibində Tədris-metodiki şura və tədris departamenti fəaliyyət göstərir.

**Sosial və humanitar məsələlər üzrə prorektorluq.** Tərbiyə işi və ictimai fəaliyyətləri koordinasiya edən prorektorluq universitetdə tələbələrin sosial və ictimai fəaliyyətlərini dəstəkləyir, tələbə təşkilatlarının fəaliyyətlərini stimullaşdırır, müxtəlif mədəni-kütləvi tədbirlər təşkil edir. Tələbələr və tələbə təşkilatları ilə işin və informasiya yayımının çevik koordinasiyası üçün prorektorluğun tərkibində Tələbələrlə iş və icitmaiyyətlə əlaqələr şöbəsi fəaliyyət göstərir. O cümlədən Heydər Əliyev Mərkəzinin muzey, salon və zallarında tələbələrin maarifləndirilməsi və müxtəlif tədbirlərin, ekskursiyaların təşkili üçün hər cür şərait yaradılıb.

**Elm və innovasiyalar üzrə prorektorluq.** Elmi tədqiqatlarların aparılmasına rəhbərlik edən prorektorluğun tərkibində Magistratura və doktorantura şöbəsi, Davamlı təhsil və innovasiyalar şöbəsi, Kitabxana İnformasiya Mərkəzi, Nəşriyyat şöbəsi, Türksoy kafedrası, Təhsil Menecmenti kafedrası, Dissertasiya Şurası, Tələbə Elmi Cəmiyyəti, Elmi -Tədqiqat Mərkəzi, Elmi-təşkilati şöbə və Dövri elmi jurnallar fəaliyyət göstərir. Prorektorluq magistratura və doktorantura səviyyəsində yüksək səviyyəli alim kadrlarının hazırlanması, ixtisasartırma və təkmilləşdirmə, elmi-tədqiqatların aparılması və innovativ elmi yanaşmaların təklif olunması üzərində səylə çalışır.

**Beynəlxalq əlaqələr üzrə prorektorluq.** Universitetin xarici təhsil qurumları ilə əlaqələrini koordinasiya edir, perspektivləri araşdırır.

ADPU hazırda 31 xarici universitet ilə əməkdaşlıq edir, tələbə mübadiləsi həyata keçirir. Türkiyənin 11 universiteti ilə "Mövlanə" proqramı çərçivəsində tələbələr üçün təhsil şəraiti yaradır. Ümumilikdə 11 Türkiyə, 8 Rusiya, 2 Ukrayna, 1 Rumıniya, 1 ABŞ, 4 Qazaxıstan, 2 Litva, 1 İndoneziya, 1 BƏƏ, 1 İsveçrə, 1 Özbəkistan, 1 Moldova universiteti ilə əməkdaşlıq edilir.

Erasmus + mübadilə proqramı ilə tərəfdaş universitetlər arasında tələbə, akademik və inzibati heyətin mübadiləsi həyata keçirilir. Avrasiya Universitetlər Birliyi, Kafkasya Universitetlər Birliyi kimi beynəlxalq assosiasiyalarla yaxından əməkdaşlıq edilir.

ADPU Avropa Müəllim Hazırlığı Şəbəkəsi və Universitet Prezidentlərinin Beynəlxalq Assosiasiyasının üzvüdür.

**Strateji inkişaf məsələləri üzrə prorektorluq.** Prorektorluq universitetin strateji inkişaf istiqamətlərinin müəyyən olunması, bu istiqamətdə fəaliyyətlərin icrasını təmin edir. Tərkibində Strateji İnkişaf Mərkəzi fəaliyyət göstərir.

**Ümumi işlər üzrə prorektorluq.** Prorektorluğun tərkibində Hərbi səfərbərlik və xüsusi şöbə, Arxiv bölməsi və Mülki müdafiə qərərgahı fəaliyyət göstərir.

**Bakı Kampusları**

Bakı şəhərində ADPU-nun 4 kampusu yerləşir. Bunlar aşağıdakı kampuslardır:

1. **1 saylı Kampus və ya Səbail kampusu.** ADPU-nun əsas tədris binası buradadır. Bakı şəhəri, Səbail rayonu, Üzeyir Hacıbəyli küçəsi, 68 ünvanında yerləşir. Kampusda Filologiya fakültəsi, Riyaziyyat fakültəsi, Fizika fakültəsi, Kimya və biologiya fakültəsi və SABAH mərkəzi yerləşir. Həmçinin universitetin böyük akt zalı, iclas salonu, Heydər Əliyev Mərkəzi (muzey və lektoriya), Karyera Mərkəzi, Kitabxana-informasiya Mərkəzi, universitet nəşriyyatı, kimya və fizika labarotoriyaları, zooloji muzey, böyük idman zalları və SABAH auditoriyaları da bu kampusdadır.
2. **2 saylı Kampus və ya Gənclik kampusu.** ADPU-nun II tədris binası bu kampusdadır. Bakı şəhəri, Nərimanov rayonu, Akademik Həsən Əliyev küçəsi, 104 ünvanında yerləşir. Kampusda Tarix və coğrafiya fakültəsi, Magistratura və Doktorantura şöbəsi, Davamlı təhsil və innovasiyalar şöbəsi yerləşir. Həmçinin kampusda Heydər Əliyev Mərkəzi (muzey və iclas salonu), xarici tələbələr qız tələbələr üçün geniş və şəraitli yataqxana, kitabxana-informasiya mərkəzi, müasir amfiteatr tipli auditoriyalar, böyük akt zalı və tam təchizatlı idman zalı, ən müasir inklüziv tədris labarotoriyaları da fəaliyyət göstərir.
3. **3 saylı Kampus və ya Nəsimi kampusu.** ADPU-nun III tədris binası bu kampusdadır. Bakı şəhəri, Nəsimi rayonu, Nəsib bəy Yusifbəyli küçəsi, 60 ünvanında yerləşir. Kampusda İncəsənət və fiziki tərbiyə və İbtidsi təhsil fakültələri yerləşir. Burada 29 saylı şəhər poliklinikası, idman zalı, musiqi, rəsm, heykəltaraşlıq otaqları və kitabxana fəaliyyət göstərir.
4. **4 saylı Kampus və ya Təbriz kampusu.** ADPU-nun IV tədris binası bu kampusda yerləşir. Bakı şəhəri, Nəsimi rayonu, Koroğlu Rəhimov küçəsi, 13 ünvanında yerləşir. Kampusda Məktəbəqədər təhsil fakültəsi yerləşir. Burada fakültənin inküziv tədris labarotoriyaları və kitabxana da fəaliyyət göstərir.

Qeyd edək ki, bütün kampuslarda tibb məntəqələri, 1 və 2 saylı kampuslarda geniş yeməkxana, 3 və 4 saylı kampuslarda isə bufetlər fəaliyyət göstərir.

**Fakültə və şöbələrimiz**

Müəllim kadrlarının hazırlanması universitetdə 8 fakültə, 1 mərkəz və 33 kafedrada aparılır.

**Filologiya fakültəsində**

☑ Azərbaycan dili və ədəbiyyatı müəllimli,

☑ İngilis dili müəllimliyi

☑ və Fransız dili müəllimliyi xtisasları üzrə bakalavriat səviyyəsində müəllim hazırlığı həyata keçirilir. Fakültədə 1500 nəfərdən çox tələbə təhsil alır.

**Tarix və Coğrafiya fakültəsində**

☑ Tarix müəllimliyi

☑ Coğrafiya müəllimliyi

☑ Tarix və coğrafiya müəllimliyi

☑ və Sosial iş ixtisasları üzrə bakalavriat səviyyəsində müəllim hazırlığı həyata keçirilir. Fakültədə 1500 nəfərdən çox tələbə təhsil alır.

**Kimya və Biologiya fakültəsində**

☑ Kimya müəllimliyi

☑ Biologiya müəllimliyi

☑ və Kimya və biologiya müəllimliyi ixtisasları üzrə bakalavriat səviyyəsində müəllim hazırlığı həyata keçirilir. Fakültədə 1000 nəfərdən çox tələbə təhsil alır.

**Riyaziyyat fakültəsində**

☑ Riyaziyyat müəllimliyi

☑ İnformatika müəllimliyi

☑ və Riyaziyyat və informatika müəllimliyi ixtisasları üzrə bakalavriat səviyyəsində müəllim hazırlığı həyata keçirilir. Fakültədə 1500 nəfərdən çox tələbə təhsil alır.

**Fizika fakültəsində**

☑ Fizika müəllimliyi

☑ və Texnologiya müəllimliyi ixtisasları üzrə bakalavriat səviyyəsində müəllim hazırlığı həyata keçirilir. Fakültədə 800 nəfərə yaxın tələbə təhsil alır.

**İncəsənət və fiziki tərbiyə fakültəsində**

☑ Musiqi müəllimliyi

☑ Təsviri incəsənət müəllimliyi

☑ və Fiziki tərbiyə və çağırışaqədər hazırlıq müəllimliyi ixtisasları üzrə bakalavriat səviyyəsində müəllim hazırlığı həyata keçirilir. Fakültədə 1000 nəfərə yaxın tələbə təhsil alır.

**Məktəbəqədər təhsil fakültəsində**

☑ Məktəbəqədər təlim və tərbiyə

☑ Korreksiyaedici təlim

☑ və Təhsildə sosial-psixoloji xidmət ixtisasları üzrə bakalavriat səviyyəsində müəllim hazırlığı həyata keçirilir. Fakültədə 1500 nəfərə qədər tələbə təhsil alır.

**İbtidai təhsil fakültəsində**

☑ İbtidai sinif müəllimliyi ixtisası üzrə bakalavriat səviyyəsində müəllim hazırlığı həyata keçirilir. Fakültədə 1500 nəfərdən çox tələbə təhsil alır.

**ADPU-nun SABAH mərkəzində**

☑ Riyaziyyat və informatika müəllimliyi

☑ Məktəbəqədər təlim və tərbiyə

☑ Azərbaycan dili və ədəbiyyatı müəllimliyi

✅ və İbtidai sinif müəllimliyi ixtisasları üzrə bakalavriat səviyyəsində müəllim hazırlığı ən müasir standartlar əsasında həyata keçirilir. Hazırda 300-ə qədər tələbə SABAH qruplarında təhsil alır.

Qeyd edək ki, ADPU-nun fakültələrində tədris Azərbaycan və rus bölmələri üzrə aparılmaqla yanaşı əksər fakültələrdə ingilisdilli eksperimental qruplar da fəaliyyət göstərir. Bakalavriatda ümumilikdə 22 ixtisas mövcuddur.

Fakültələrdə ixtisas laboratoriyaları, tədris muzeyləri, inklüziv təhsil otaqları və laboratoriyaları, geniş zalları, işıqlı və təhcizatlı auditoriyaları, zəngin fonda malik kitabxanaları, həmçinin elektron kitabxana və oxu zalları, idman zalları və qurğuları, qaynar sosial həyatı, özünüzü tapacağınız səmimi tələbə təşkilatları və ən əsası peşəkar və mehriban pedaqoqları ilə sizi ən şərəfli peşəyə - müəllimliyə, yəni insan memarlığına dəvət edirik.

**Yüksək səviyyəli pedaqoji elmi kadrların yetişdirilməsində xüsusi iş aparan universitetdə Magistratura və doktorantura şöbəsi və Damamlı təhsil və innovasiyalar şöbəsi fəaliyyət göstərir.**

Azərbaycan Dövlət Pedaqoji Universitetində magistratura və doktorantura şöbəsi 1997-ci ildə yaradılmışdır. Şöbədə əsasən metodika üzrə magistratura səviyyəsində 20, doktorantura səviyyəsində isə 37 ixtisaslaşmada yüksək dərəcəli alim kadrları yetişdirilir.

**...**

Azərbaycanın müxtəlif regionlarında ADPU-nun 5 filialı fəaliyyət göstərir. ADPU-nun hazırkı filialları 2015-ci ilə qədər keçmiş Azərbaycan Müəllimlər İnstitutunun filialları kimi fəaliyyət göstəriblər.

**Şəki filialı.** ADPU-nun Şəki filialı bölgədə mədəni həyatın inkişafında müstəsna əhəmiyyəti olan ali təhsil ocağıdır. Şəki filialı bir ali təhsil müəssisəsi kimi ötən 30 illik fəaliyyəti dövründə zəruri ehtiyac olan ixtisaslar üzrə 4 mindən artıq ilkin kadr hazırlığı həyata keçirmiş, bölgə ali məktəbi üçün qaneedici elmi-pedaqoji kadr potensialı formalaşdırmışdır. Respublikamızın Şimal-Qərb bölgəsində yerləşən, tarixi və mədəni mərkəz kimi tanınan qədim Şəkidə fəaliyyət göstərən bu ali məktəb 1991-ci ildə Bakı Dövlət Universitetinin Şəki filialı adı fəaliyyətə başlamışdır. Hazırda ADPU-nun Şəki filialında professor-müəllim heyətinin elmi tədqiqat işlərinə cəlb edilməsi sahəsində xeyli uğurlu nəticələr əldə edilmişdir. Filialda Elmi Şura, Tələbə Gənclər Təşkilatı, Tələbə Elmi Cəmiyyəti və Tələbə Həmkarlar

Təşkilatı kimi strukturlar fəaliyyət göstərir. Filialda Pedaqoji və Filologiya fakültələrində Məktəbəqədər təhsil, İbtidai sinif müəllimliyi, Tarix və coğrafiya müəllimliyi, Təhsildə sosial-psixoloji xidmət, İngilis dili müəllimliyi, Fransız dili müəllimliyi, Riyaziyyat və informatika müəllimliyi və Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisasları üzrə kadr hazırlığı aparılır. Filial 3,2 hektar ərazidə 2 və 3 mərtəbəli yanaşı 2 binada yerləşir.

**Quba Filialı.** ADPU-nun Quba filialında 30 illik fəaliyyəti dövründə 2 mindən artıq ilkin kadr hazırlığı həyata keçirilmişdir. Respublikamızın Şimal-Şərq bölgəsində yerləşən, tarixi və mədəni mərkəz olan Qubada fəaliyyət göstərən bu ali məktəb 1991-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Quba filialı adı ilə fəaliyyətə başlamışdır. Filialda Elmi Şura, Tələbə Gənclər Təşkilatı, Tələbə Elmi Cəmiyyəti və Tələbə Həmkarlar Təşkilatı kimi strukturlar fəaliyyət göstərir. Filial 2,5 hektar ərazidə 2 və 3 mərtəbəli 2 binada yerləşir. Hazırda filialda "İbtidai sinif müəllimliyi", "Azərbaycan dili və ədəbiyyatı", "Tarix və coğrafiya", "Təhsildə sosial-psixoloji ixidmət", "Riyaziyyat və informatika müəllimliyi" və "Məktəbəqədər təlim və tərbiyə" ixtisasları üzrə bakalavriat səviyyəsində 820 nəfərdən çox tələbə təhsil alır.

Fəaliyyətdə olduğu dövrdə Quba filialında bakalavr pilləsində pedaqoji kadr hazırlığı ilə yanaşı, ixtisasartırma, təkmilləşdirilmə və yenidən hazırlanma sahəsində də səmərəli işlər aparıb.

**Cəlilabad filialı.** Filial 2000-ci ildə Cəlilabad Kənd Təsərrüfatı Texnikumunun bazasında yaradılmışdır. Filial əhalisinin sayı 220 mindən çox olan Cəlilabad rayonunda yerləşir və regionda pedaqoji kadr hazırlığı və ömürboyu təhsili reallaşdırmaq məqsədi ilə gələcəyə proqnozlaşdırılmışdır. Cəlilabad filialı qısa bir zamanda əksəriyyətin istinad edəcəyi elm, təhsil, mədəniyyət və ideoloji bir mərkəzə çevrilmişdir. Filial təhsil islahatı ilə bağlı bütün məsələlərin və təhsil innovasiyalarının inteqrasiyası baxımından bölgədə xüsusi əhəmiyyət kəsb edir. Filial 1 fakültədə birləşən 4 ixtisas üzrə kadr hazırlığı həyata keçirir: - "Məktəbəqədər təlim və tərbiyə", "İbtidai sinif müəllimliyi", "Azərbaycan dili və ədəbiyyat müəllimliyi" və "Tarix və coğrafiya müəllimliyi" ixtisası.

3 ictimai təkilat fəliyyət göstərir - Tələbə Elmi Cəmiyyəti - Tələbə Gənclər Təşkilatı - Həmkarlar Təşkilatı İttifaqı Komitəsi.

Fəaliyyətdə olduğu 21 ilə yaxın dövr ərzində ADPU-nun Cəlilabad filialında bakalavr pilləsində pedaqoji kadr hazırlığı ilə yanaşı, pedaqoji kadrların ixtisasının artırılması, təkmilləşdirilməsi və yenidən hazırlanması sahəsində də səmərəli işlər aparılmışdır.

Filial 3,2 hektar ərazidə 2 və 3 mərtəbəli yanaşı 2 binada yerləşir.

**Şamaxı filialı.** Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı 1991-ci ildən fəaliyyət göstərir. Fəaliyyətdə olduğu 30 illik müddətdə xeyli uğurlara imza atıb. Filialın inzibati binası 3 mərtəbədən, müasir texnologiyalar və istilik sistemi ilə təchiz olunmuş 20 auditoriya və 80 otaqdan ibarətdir. Bütün otaqlar kompüter və daimi internet şəbəkəsi ilə təmin edilmişdir. Hal-hazırda filialda 63 dəst müasir kompyuter avadanlıqları ilə təchiz olunmuş 6 otaq, 2 müasir elektron lövhə və 4 proyektor ilə təchiz olunmuş dərs auditoriyaları tələbə və əməkdaşların istifadəsindədir. Filialda 12 struktur fəaliyyət göstərir. Filialda Pedaqoji fakültədə İbtidai sinif müəllimliyi, Azərbaycan dili və ədəbiyyatı müəllimliyi, Tarix və coğrafiya müəllimliyi, Riyaziyyat və informatika müəllimliyi və Məktəbəqədər təlim və tərbiyə ixtisasları olmaqla 5 ixtisas üzrə kadr hazırlığı həyata keçirilir.

**Ağcabədi filialı.** 1992-ci ildə ADPU-nun Şuşa filialının bazasında Azərbaycan Müəllimlər İnstitutunun Ağcabədi filialı yaradılmışdır. Filial 6,5 hektar ərazidə 3 mərtəbəli binada yerləşir. Hazırda filialda "Riyaziyyat və informatika müəllimliyi, "Tarix və coğrafiya müəllimliyi", "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi", "İbtidai sinif müəllimliyi", "Məktəbəqədər təlim və tərbiyə" ixtisasları üzrə 600 nəfərə yaxın tələbə təhsil alır. Fəaliyyətdə olduğu 21 illik dövr ərzində Ağcabədi filialında bakalavr pilləsində pedaqoji kadr hazırlığı ilə yanaşı, pedaqoji kadrların ixtisasının artırılması və yenidən hazırlanması sahəsində də səmərəli işlər aparılmışdır. Filialdan indiyədək 3 mindən artıq müəllim məzun olmuşdur. Respublikamızın Aran bölgəsində yerləşən Ağcabədidə fəaliyyət göstərən bu ali məktəbin professor-müəllim heyəti, gənc tədqiqatçıları və tələbələri respublika və beynəlxalq səviyyəli elmi konfranslarda müntəzəm iştirak edirlər. Filialda tələbələrin asudə vaxtlarının səmərəli təşkili məqsədi ilə müntəzəm olaraq müxtəlif mövzularda elmi konfranslar, disput və debatlar, yubiley və müsabiqələr keçirilir. Filialda Direktor Şurası, Tələbə Gənclər Təşkilatı, Tələbə Elmi Cəmiyyəti və Tələbə Həmkarlar Təşkilatı kimi strukturlar fəaliyyət göstərir.

**...**

**ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci.** Kollec 1919-cu ildən indiyə kimi müxtəlif adlarla fəaliyyət göstərir. Hazırda 2 tədris binası ilə tələbələrə xidmət göstərir. Kollecdə əyani və qiyabi şöbələr üzrə ümumilikdə 3937 nəfər tələbə təhsil alır. Kollecdə Məktəbəqədər təlim və tərbiyə; Texnologiya müəllimliyi; Fiziki tərbiyə müəllimliyi; İbtidai sinif müəllimliyi; Təsviri incəsənət müəllimliyi; Ailə və ev təhsili; Məktəbəqədər təhsildə korreksiyaedici təlim; Peşə təlimi və Sosial iş ixtisasları üzrə kadr hazırlığı həyata keçirilir.

**Bakı şəhərində yerləşən Məmməd Rahim adına 7№-li tam orta məktəb ADPU-nun baza məktəbi kimi fəaliyyət göstərir. Məktəbdə universitet tərəfindən qabaqcıl yerli və beynəlxalq pedaqoji təcrübə və innovativ pilot layihələr uğurla tətbiq olunur.**

## İctimai həyat - tələbə təşkilatları

Universitetdə 6 tələbə təşkilatı fəaliyyət göstərir.

1. ***ADPU Tələbə Həmkarlar İttifaqı Komitəsi*** 1926-cü ildən fəaliyyət göstərir. Tələbələrin sosial problemlərinin həlli, onların hüquqlarının müdafiə edilməsi, müalicə və istirahətlərinin təşkili istiqamətində tədbirlər həyata keçirir.
2. ***ADPU Tələbə Gənclər Təşkilatı*** 2005-ci ildən fəaliyyət göstərir. Təşkilatın əsas məqsədi tələbələrin hüquqlarının qorunması və onların asudə vaxtlarının səmərəli təşkilidir.
3. ***ADPU Könüllüləri Tələbə Birliyi*** tələbələrin asudə vaxtlarının səmərəli keçirilməsi yönündə fəaliyyət göstərən ictimai təşkilatdır.
4. ***ADPU Təhsil Könüllüləri İctimai Birliyi*** 2019-ci ildə yaradılıb. Təşkilatın əsas fəaliyyət istiqamətləri:

- tələbələrə dəstək, - Pedaqoji təhsil alan tələbələri təhsil tədqiqatlarına cəlb etmək və - Təhsil siyasətində tələbələrin iştirakçılıq formasını yaratmaqdır.

5. ***Türk Ögrenci Yönetim Konseyi*** ADPU-da təhsil alan Türkiyəli tələbələrin sosial-ictimai fəaliyyətlərini koordinasiya edir.
6. ***ADPU Tələbə Elmi Cəmiyyəti*** – tələbələrin elmi fəaliyyətinin stimullaşdırılması istiqamətində tədbirlər icra edir, seminarlar, müzakirələr, tələbə elmi konfransları təşkil edir.

**ADPU Kütləvi İnformasiya Vasitələri və Sosial Mediada**

Azərbaycan Dövlət Pedaqoji Universitetinin ictimaiyyətlə əlaqələrini daha da inkişaf etdirmək məqsədi ilə ADPU-nun Sosial Media Marketinq komandası -ADPU SMM 2020-ci ilin oktyabrından universitetin rəsmi sosial media hesablarını yenidən quraraq instaqram və tvitterdə vahid rəsmi səhifələr yaradıb, ilk dəfə universitetin rəsmi teleqram kanalını istifadəyə verib. 5 aydan az müddətdə fərqli konseptdə və operativ fəaliyyət göstərən səhifələr tələbələr arasında böyük auditoriya toplayıb, instaqramda 6645, teleqramda 5910, tvitterdə 700-ə yaxın, yutubda 3800 nəfərə yaxın izləyici kütləsi cəlb edərək oxşar səhifələr arasında öz fərqini ortaya qoya bilib. Universitetin mətbu orqanı olan "Gənc Müəllim" qəzeti yeni üslub və dizaynda çap və elektron formada dərc edilməyə başlanıb. Həmçinin ADPU-nun KİV-lə əlaqəsi də operativ əsaslarla qurularaq universitetin fəaliyyətinin tanınmış informasiya agentlikləri tərəfindən müntəzəm olaraq işıqlandırılması təmin edilir.

Komanda ADPU-nun 100 illiyi ilə bağlı bu istiqamətdə fəaliyyətini genişləndirərək "Youtube" platformasında universitetin "ADPU TV" adlı onlayn televiziyasını istifadəyə verib. Davamlı fəaliyyətə başlayan layihənin fərqli cəhətləri sırasına kanalda təhsil mütəxəssisləri, təhsilverənlər, tanınmış alimlərlə canlı müsahibələrin, canlı yayımların, müxtəlif səpkidə verilişlərin, rublikaların yayımı, tələbə fəaliyyətlərinin işıqlandırılması aiddir. Kanalın yayım və texniki heyəti könüllü tələbələrdən ibarət ibarətdir.

Universitetin 100 illiyi ilə bağlı komanda tərəfindən 3 kitab, çap məhsulları və aksessuarlar hazırlanmışdır.

O cümlədən qısa müddət ərzində beynəlxalq əlaqələr üzrə prorektor, Filologiya fakültəsinin dekan əvəzi professor Mahirə Hüseynova tərəfindən Filologiya fakültəsinin saytı və qəzeti təsis edilərək işıq üzü görmüşdür. Digər fakültələr də bu qəbildən olan işlərin görülməsinə başlamışlar.